QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 179 (5410) 4 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan dünya Olimpiya ailəsində artıq öz layiqli yerini tutub"

*Azərbaycan Prezidenti İlham Əliyev qadın voleybolçulardan ibarət milli komandamızın heyətini qəbul edib*




Səh 2

**Tarixi xilasımızın başlanğıc yolu**




8

**Prezident İlham Əliyev Ukraynanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**



3

**Gintaras Visotskas. Seymin Antikorrupsiya Komissiyasının sədri Vitaliyus Qaylyusa açıq məktub**



6

**"The Washington Times": Azərbaycan - dini tolerantlıq diyarı**




7

**Kubanın ölkəmizdəki səfiri gənclərə "Beynəlxalq əlaqələr və diplomatiya" mövzusunda təlim keçib**




7

**Məlahət İbrahimqızı: "1993-cü il 3 oktyabr gününü unutmamalıyıq, təbliğ etməliyik"**



10

13

**Azərbaycan xalqı heç də Avropa təşkilatlarının tələblərini qəbul etmək məcburiyyətində deyil!**



14

**Turbyern Yaqland AŞPA-nın baş katibliyindən uzaqlaşdırılmalıdır**



16

**Gimnastımız Dünya Kubokunda qızıl medal qazanıb**



# “Azərbaycan dünya Olimpiya ailəsində artıq öz layiqli yerini tutub”

## *Azərbaycan Prezidenti İlham Əliyev qadın voleybolçulardan ibarət milli komandamızın heyətini qəbul edib*



***Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev layiqli çıxış etmələri münasibətilə qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini təbrik etdi. Bildirdi ki, milli komandamızın çıxışı bütün azarkeşlərə böyük sevinc bəxş etdi. Bu, son dərəcə maraqlı idman mübarizəsi idi və çempionat bizim qadın voleybolumuzun səviyyəsini bir daha nümayiş etdirdi. Bütövlükdə, qadınlar arasında voleybol üzrə Avropa çempionatı çox uğurla keçdi və təşkilatçılıq yüksək səviyyədə oldu. Avropa federasiyalarının rəhbərləri və digər qonaqlar da bunu qeyd ediblər.

Çempionatın yalnız Bakıda deyil, həm də regionda - Göygöl şəhərində keçirildiyinin əlamətdar olduğunu vurğulayan dövlətimizin başçısı dedi ki, bu, bizim idman infrastrukturunun inkişafını göstərir. Bütün idman növləri, o cümlədən voleybolda idmançılar üçün yaradılan yaxşı şərait olmadan belə dinamik inkişaf mümkün olmazdı. Bütövlükdə, Azərbaycan dünya Olimpiya ailəsində artıq öz layiqli yerini tutub. Bu, bizimlə yanaşı, beynəlxalq strukturların, o cümlədən Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitələrinin verdiyi qiymətdir.





Prezident İlham Əliyev bu yaxınlarda Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 25 illik yubileyinin qeyd edildiyini və həmin tədbirdə dünyanın yüksək vəzifəli idman məmurlarının çıxışlarında Azərbaycanın çox böyük, misilsiz uğurlar qazandığını qeyd etmələrini xatırlatdı.

“Əsasən bizim idman uğurlarımız fərdi idman növlərində qazanılıb. Komanda növlərində isə hesab edirəm ki, qadın voleybolu birinci yerdədir”, - deyən dövlətimizin başçısı vurğuladı ki, bunu milli komandamızın oyunu və əldə edilən nəticə də göstərdi. Avropada 4-cü yeri qazanmağın böyük nailiyyət olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, qrupdakı və dörddəbir final oyunundakı rəqiblər üzərində böyük üstünlüklə qazanılan qələbələr azarkeşlər üçün gözlənilməz idi.

“Əlbəttə, ilk növbədə, sizin üçün təəssüfləndiricidir ki, medal qazana bilmədiniz. Ancaq qarşıda xeyli digər yarışlar var. Əminəm ki, qələbələr olacaq. Əsas odur ki, layiqli çıxış etdiniz”, - deyən Prezident İlham Əliyev komandamızın yüksək məharət göstərdiyini və yarımfinal oyununda qələbəyə yaxın olduğunu söylədi. Dövlətimizin başçısı bildirdi ki, idman idman olaraq qalır. Burada hadisələr müxtəlif cür inkişaf edir.

Prezident İlham Əliyev milli komandanın baş məşqçisi Faiq Qarayev başda olmaqla məşqçi kollektivinin əməyini qeyd etdi. Faiq Qarayevin uzun illər ərzində dünya voleybolunda böyük nüfuz qazandığını, komandamıza uğurla rəhbərlik etdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanda müasir qadın voleybolunun inkişafının onun adı ilə bağlı olduğunu dedi. Prezident İlham Əliyev, həmçinin idmançılar üçün yaxşı şərait yaradılması istiqamətində Voleybol Federasiyasının təşkilatçılıq fəaliyyətinin də yeni keyfiyyət səviyyəsinə qalxdığını bildirdi. Dövlətimizin başçısı meydançada belə yaxşı nəticələrə nail olmaq üçün çalışan, yüksək ustalıq nümayiş etdirən və bir daha azarkeşlərin böyük rəğbətini qazanan komandamızın oyunçularına bir daha təşəkkürünü bildirdi.

“Bizim idmançılar çox peşəkar və vətənpərvərdir. Çünki qələbə uğrunda bu cür əzmlə mübarizə aparmaq səmimi qəlbdən milyonlarla Azərbaycan vətəndaşına sevinc bəxş etmək istəyən idmançıya xasdır”, - deyən Prezident İlham Əliyev idmançılarımızın gələcəkdə də bizi yaxşı nailiyyətlərlə sevindirəcəklərinə əminliyini ifadə etdi.

Çempionat keçirilən müddət ərzində göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən milli komandanın üzvü Valeriya Məmmədova qeyd etdi ki, bu dəstək komandanın rəqiblər üzərində qələbə qazanmasında çox vacib idi. O, Prezident İlham Əliyevin komandanın çətin və sevincli anlarında yanında olduğunu vurğuladı, bu gün Azərbaycan idmanının inkişafı istiqamətində atılan addımların çox səvindirici olduğunu dedi. Milli komandanın üzvü gələcəkdə də böyük uğurlar qazanaraq ölkəmizə sevinc bəxş edəcəklərinə əminliyini ifadə etdi.

Milli komandanın baş məşqçisi Faiq Qarayev göstərdiyi dəstəyə və diqqətə, həmçinin onun haqqında dediyi xoş sözlərə görə dövlətimizin başçısına komanda adından təşəkkürünü bildirdi. Qeyd etdi ki, bu illər ərzində komanda daim Prezident İlham Əliyevin diqqət və dəstəyini hiss edib.

**Ardı Səh. 3**

# "Azərbaycan dünya Olimpiya ailəsində artıq öz layiqli yerini tutub"

*Azərbaycan Prezidenti İlham Əliyev qadın voleybolçulardan ibarət milli komandamızın heyətini qəbul edib*





Əvvəli Səh. 2

"Əlbəttə, biz indi Sizin yanınıza medalla gəlmək, Sizi daha çox sevindirmək istərdik," - deyən Faiq Qarayev dövlətimizin başçısının hər dəfə oyunu izləməyə gəlməsinin komandamız üçün çox böyük bir dəstək olduğunu dedi. O vurğuladı ki, milli komandamızın üzvləri arasında olan bəzi gənclər ilk dəfə idi belə böyük yarışda çıxış edirdilər. Yüksək səviyyədə hər cür şəraitin olduğunu deyən Faiq Qarayev komandamızın hazırlığı İtaliya və Sloveniyada keçdiyini, güclü komandalarla oynadıqlarını bildirdi. Son bir il ərzində milli komandanın 23 rəsmi oyun keçirdiyini və bunların heç birində də məğlub olmadığını qeyd edən baş məşqçi dünya çempionatının seçmə yarışlarında 5 oyunun hamısında 3-0 hesabı ilə, o cümlədən Avroliqada qələbə qazandığımızı xatırlatdı, 2018-ci ildə Yaponiyada keçiriləcək dünya çempionatının finalına vəsiqə qazandığımızı bildirdi. Faiq Qarayev komandamızın bundan sonra da yeni qələbələr qazanmaq üçün bütün səylərini əsirgəməyəcəyini dedi.

Voleybol Federasiyasının prezidenti, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə milli komandamıza göstərdiyi dəstəyə, həmçinin idmanın bu növünün inkişafı üçün yaradılan şəraitə görə təşəkkürünü bildirdi.

Voleybol üzrə qadınlardan ibarət milli komandamızın dünyanın gücləri sırasında olduğunu deyən Prezident İlham Əliyev qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutmağımızın böyük nailiyyət olduğunu bir daha vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan əhalisinin sayına görə o qədər də böyük olmasa da, komandamız dünyanın aparıcı, böyük tarixi, ənənələri və potensialı olan voleybol üzrə yığma komandaları ilə bərabər səviyyədə mübarizə apardı. Azərbaycan Prezidenti komandamıza yeni-yeni uğurlar arzuladı.

Sonra milli komandamızın üzvləri dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər. Sonda xatirə şəkli çəkdirildi.

## Prezident İlham Əliyev Ukraynanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Ukraynanın xarici işlər naziri Pavlo Klimkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin səviyyəsindən məmnunluğunu ifadə etdi, Ukraynanın Prezidenti Petro Poroşenkonun Azərbaycana səfərinin bu münasibətlərin möhkəmləndirilməsi işində mühüm rol oynadığını vurğuladı.***



Prezident İlham Əliyev qeyd etdi ki, bu səfər ölkələrimizin müvafiq strukturları arasında əlaqələrin, xüsusilə iqtisadi-ticarət, investisiya sahələrində əməkdaşlıq imkanlarının genişləndirilməsi işinə təkan verdi. Dövlətimizin başçısı bildirdi ki, əsas məsələlərdən biri iki ölkənin imkanlarından istifadə edərək ticarət dövriyyəsinin artırılmasından, ixracidxal əməliyyatlarının genişləndirilməsindən və mümkün investisiya layihələrinin müəyyənləşdirilməsindən ibarətdir. Ölkələrimiz arasında dostluq münasibətlərinin mövcud olduğunu bildirən Prezident İlham Əliyev beynəlxalq strukturlarda da fəal əməkdaşlığın həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı nəqliyyat sahəsində də əməkdaşlığın önəmini qeyd edərək, bu gün Ukraynadan Asiyaya göndərilən yüklərin bir hissəsinin Azərbaycandan keçdiyini vurğuladı və dəmir yolu strukturları arasında beynəlxalq formatda fəal əməkdaşlığın aparıldığını dedi.

Ukraynanın xarici işlər naziri Pavlo Klimkin Prezident Petro Poroşenkonun salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırdı. İqtisadi əməkdaşlığa toxunan Pavlo Klimkin son yarım ildə ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artığını vurğuladı. Ukraynanın xarici işlər naziri yüksək səviyyədə keçirilən görüşlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. O, Azərbaycan Prezidentinin Ukraynaya səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini bildirdi. Dövlətimizin başçısı Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Avropa çempionatında Azərbaycanın qadın voleybolçularının uğurlu iştirakı haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının təhsil işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Alla Vəzirovanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə Alla İqoryevna Vəzirova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Kamal Abdullayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycanda təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Kamal Mixman oğlu Abdullayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Qobustan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# “Azərbaycanın bu qədər məşhur insanların iştirakı ilə bu cür mötəbər tədbirə ev sahibliyi etməsi bizi çox fərəhləndirir”

*Prezident İlham Əliyev Ümumdünya Boks Şurasının 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul edib*

***Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Ümumdünya Boks Şurasının rəhbəri Maurisio Süleymanın başçılığı altında Avropa Boks İttifaqının, Şimali Amerika Boks Federasiyasının, Britaniya Boks Nəzarəti Şurasının prezidentləri, WBC versiyası üzrə keçmiş dünya çempionları Evander Holifild, Kostya Dzyu, Yuri Arbaçkov, Vitali Kliçko, Nino Benvenuti, Karlos Zarate, Azumah Nelson, Bernard Hopkins və WBC versiyası üzrə hazırkı dünya çempionu Jelena Mrdjenoviç daxildir.***



**Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək deyib ki, Azərbaycanın bu qədər məşhur insanların iştirakı ilə bu cür mötəbər tədbirə ev sahibliyi etməsi bizi çox şad edir və fərəhləndirir:**

-Azərbaycana xoş gəlmisiniz. Çox şadam ki, Azərbaycan sizin Konvensiyanın iclasına ev sahibliyi edir. Kiyev meri Vitali Kliçko ilə görüşdükdə qeyd etdiyim kimi, biz bu məsələni müzakirə etdik və dedik ki, bu Konvensiyanın Bakıda keçirilməsi yaxşı ideya olardı. O, sizinlə əlaqə saxladı, siz qərar verdiniz. Azərbaycanın bu qədər məşhur insanların iştirakı ilə bu cür mötəbər tədbirə ev sahibliyi etməsi bizi çox şad edir və fərəhləndirir. Dünya idman əfsanələri Azərbaycandadır. Düşünürəm ki, çoxlarınız üçün bu, ölkəmizə ilk səfərdir. Siz burada bir neçə gün qalacaqsınız, beləliklə, xalqımız, ölkəmiz haqqında daha çox məlumat əldə edəcəksiniz. Əlbəttə ki, ölkəmizdə keçirilən bu Konvensiya Azərbaycan üçün, sizi tanıyanlar, sizin döyüşlərinizi, qələbələrinizi televiziyada izləyənlər üçün mühüm tədbirdir. Bir daha xoş gəlmisiniz və Konvensiyanın işinə uğurlar arzulayıram.

**Sonra Ümumdünya Boks Şurasının rəhbəri Maurisio Süleyman çıxış edib:**

-Bizim üçün bu, böyük şərəf və olduqca sevindirici bir haldır. Biz dünyanın bir çox ölkələrindən böyük məsafə qət edərək gəlmişik. Azərbaycana, Bakıya ilk qədəm qoyduğumuz andan bəri hər kəs bizi təbəssümlə qarşılayıb və hər şey mükəmməl olub. Atanızdan Sizə qalmış miras bizim hamımız üçün stimuldur. Siz idman vasitəsilə çox uğurlar qazanmış yeni dünya, yeni ölkə yaratmısınız. Bu, bizi məmnun edir və biz Sizə minnətdarıq.

WBC ən önəmli boks təşkilatıdır və boks bütün dünyada çox mühüm idman növüdür. Azərbaycan həvəskar boks yarışlarında uğurlar qazanıb və biz yaxın gələcəkdə peşəkar boks yarışlarında Azərbaycandan dünya çempionunun yetişdirilməsi prosesinin təməlini qoymaq istəyirik. Bizim çempionlarımızın münasibəti, onların əməlləri örnəkdir. Çünki boks sadiqlik, idmana sevgi və qurban tələb edir. Siz böyük rəhbər olmaq üçün məhz bu xüsusiyyətlərdən istifadə etmisiniz. Buna görə də bu qəbulun baş tutmasında böyük rol oynamış qəhrəmanımız Vitali Kliçko sayəsində Sizinlə görüşmək bizim üçün şərəf və olduqca sevindirici haldır.

**Prezident İlham Əliyev:**

-Təşəkkür edirəm. Ölkəmiz haqqında xoş sözlərə görə çox sağ olun. Sizin hamınızın bir neçə gün Azərbaycanda olacağınız məni çox sevindirir. Bu, Azərbaycanda boksun inkişafına müsbət təsir göstərəcək. Qeyd etdiyiniz kimi, həvəskar boks yarışlarında yaxşı idmançılarımız var. Bu il boksçularımızdan biri üççat dünya çempionu adına layiq görülüb. Olimpiya Oyunlarındakı boks yarışlarında da medallar qazanmışıq, zənnimcə, bürünc medallarımız olub. Hesab edirəm ki, boksçularımızın peşəkar boksçu olması üçün potensial mövcuddur, çünki boks Azərbaycanda çox məşhur idman növüdür. Ümumiyyətlə, Azərbaycanda idmanın inkişafı çox uğurla gedir.

Mən Milli Olimpiya Komitəsinin yaradılmasının 25-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə sizi gördüm. Biz həqiqətən də uğurlu fəaliyyət göstərmişik, tarixdə ilk dəfə keçirilən Avropa Oyunları kimi önəmli idman tədbirlərini Azərbaycanda təşkil etmişik. Çünki bütün digər qitə oyunları artıq dəfələrlə təşkil olunub, məsələn, Amerika, Asiya və Afrika Oyunları, lakin Olimpiya Hərəkatının başladığı Avropanın özünəməxsus oyunları olmamışdı. Beləliklə, ilk Avropa Oyunları iki il bundan əvvəl burada təşkil edildi. Bu il Azərbaycanda minlərlə atletin iştirakı ilə İslam Həmrəyliyi Oyunları da keçirildi. Bir neçə gün əvvəl voleybol üzrə qadınlar arasında Avropa çempionatı keçirildi. Bizim komanda medal qazanmağa çox yaxın idi və dördüncü yerdə qərarlaşdı. Əlbəttə ki, digər müxtəlif idman yarışları da keçirilmişdir. Onların sırasında Formula-1 şəhər halqası da var və Rio-de-Janeyroda keçirilən Yay Olimpiya Oyunlarındakı nəticələrimiz də. Riodakı Yay Olimpiya Oyunlarında biz 18 medal qazandıq və ümumi medal sayına görə dünyada 14-cü yerdə qərarlaşdıq. On milyon əhalisi olan və cəmi 25 il bundan əvvəl müstəqilliyini bərpa etmiş bir ölkə üçün bu, böyük bir nailiyyətdir. Hər dəfə Bakıya nüfuzlu idmançılar təşrif buyurduqda biz idmanın inkişafının şahidi oluruq. Əminəm ki, səfərinizdən sonra çoxlu uşaqlar sizin kimi məşhur olmaq üçün idman seksiyalarına, idman komandalarına yazılacaqlar.

**Maurisio Süleyman:** Onlar hamısı icmalarda uşaqlarla məşğul olur, məktəblərə, uşaq evlərinə, icmalara gedir və həmişə ədalətli oyun prinsiplərini, idmanı və daha yaxşı insan olmağın yollarını öyrədirlər. Mən öz döyüşçülərimizlə çox fəxr edirəm, onlar nəinki ölkə, dünya miqyasında qəhrəmandırlar. Bütün dünyanın diqqəti bu həftə boksun paytaxtı olan Bakıya yönəlib. Biz çox fərəhlənirik, Sizə minnətdarıq, qonaqpərvərliyiniz dünyada bir çoxları üçün nümunədir.





**Prezident İlham Əliyev:** Çox sağ olun. Məşhur atletlər uğurla çıxış etdikdən və karyeralarına son qoyduqdan sonra uğurlu biznesmen, siyasətçi olurlar. Vitali çox uğurla fəaliyyət göstərən bir merdir. Mənə gəldikdə isə mən də bu vəzifəyə Olimpiya Komitəsindən gəlmişəm. Çünki 20 il bundan əvvəl mən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti və yalnız ondan 6 il sonra Azərbaycan Prezidenti seçildim. Beləliklə, mən də idmanı təmsil edirəm, mən də sizin ailənizin bir üzvüyəm.

Gənclər və idman naziri Azad Rəhimov bu tədbirdə iştirak edən dünya çempionlarının Azərbaycandakı uşaq evlərinə baş çəkəcəklərini və uşaqlarla görüşəcəklərini dedi, qonaqlar üçün Bakıda rəngarəng proqramların təşkil olunduğunu və keçirildiyini bildirdi. Nazir Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının işi barədə də məlumat verdi.

*Ardı Səh. 5*

# "Azərbaycanın bu qədər məşhur insanların iştirakı ilə bu cür mötəbər tədbirə ev sahibliyi etməsi bizi çox fərəhləndirir"

*Prezident İlham Əliyev Ümumdünya Boks Şurasının 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul edib*

**Əvvəli Səh. 4**

**Maurisio Süleyman:** Konvensiya dünyada 55 ildir ki, keçirilir. Biz bir çox ölkələrdə bu Konvensiyanı keçirmişik. Bizim söhbət etdiyimiz hamının ümumi rəyi belə oldu ki, tədbirin ən səmimi, ən qonaqpərvər və gözəl şəkildə təşkil olunduğu yer Azərbaycandır. Əgər siz göstərdiyiniz nümunə əsasında, - Azərbaycanın idman qurğuları sanki başqa bir aləmdir, - işə başlamaq üçün bu şərəfi və imkanı versəniz biz WBC-nin idarə heyəti və çempionları olaraq Azərbaycanda peşəkar boksu inkişaf etdirmək üçün üzərimizə öhdəlik götürməyə hazırıq. Çünki Azərbaycanda yaxşı, geniş ürəkli idmançılar var və onlar dünya çempionları ola bilərlər. Biz əminik ki, üç ildən çox olmayan müddətdə Azərbaycandan peşəkar boks üzrə ilk dünya çempionu çıxacaq.

**Prezident İlham Əliyev:** Mən buna dəstək göstərəcəyəm. Düşünürəm ki, sizin dəstəyinizlə nazirliklə birlikdə bunu təşkil etmək olar, çünki boks çox məşhurdur.

**Sonra keçmiş dünya çempionu Vitali Kliçko çıxış edib:**

-Cənab Prezident, mən bir neçə söz demək istəyirəm. Əvvəla, bu, çox möhtəşəm bir tədbirdir. WBC prezidenti Maurisio Süleymanın qeyd etdiyi kimi, hər bir kəs məmnundur. Gözəl ab-hava var. Bütün dünyanın diqqəti Azərbaycandadır. Dünyanın müxtəlif yerlərindən jurnalistlər Bakını, bu çox önəmli tədbiri dünya miqyasında işıqlandırır. Bu tədbir çox qeyri-adi bir tədbirdir, çünki ilk dəfə Konvensiyanın iclası boks üzrə dünya çempionu olmayan ölkədə keçirilir. Mən əminəm ki, bütün infrastrukturla, belə bir yaxşı komanda ilə, - məni infrastrukturun necə inkişaf etməsi heyrətləndirib, - WBC-nin köməyi ilə çox tezliklə Azərbaycanda yaxşı boksçular, Evander Holifild kimi dünya ulduzları yetişdirilə bilər.



**Gənc nəslin formalaşmasında və cəmiyyətin inkişafında idmanın böyük rolunun olduğunu bir daha vurğulayan Prezident İlham Əliyev dedi:**

-Azərbaycanda biz həmişə deyirik ki, gənc nəsil idmanda çox fəal olmalıdır. Çünki idman nizam-intizam, ləyaqət deməkdir, idman insanlara yaxşı hisslər aşılayır. Həqiqi idmançı heç vaxt özündən zəif olana hücum etməz, xüsusilə çox güclü fiziki imkanlara malik olan boksçular, karateçilər, güləşçilər kimi idmançıları nəzərdə tuturam. Məşhur idmançıların davranışı gənc nəsil üçün yaxşı örnəkdir. Mən ölkəmizdə həmişə atletlərimizə dəstək olmağa çalışıram, çünki onlar buna layiqdir, onlar yaxşı medallar qazanır, bayrağımızı ucaldır, həm də gənc nəslə örnəkdirlər. Çünki idman gənc nəsli yaxşı əməllərə cəlb etmək, onları küçələrdən, narkotiklərdən, spirtli içkilərdən, pis vərdişlərdən, cinayətdən ayırmaq üçün ən yaxşı vasitədir. Əfsuslar olsun ki, Sovet İttifaqının dağılması ərəfəsində və ondan sonrakı ilk illərdə tam xaos, yoxsulluq və anarxiyaya görə bir çox idmançılar qeyri-qanuni fəaliyyətlə məşğul idilər. Buna görə də 1997-ci ildə Mili Olimpiya Komitəsinin prezidenti seçildikdə mənim əsas məqsədim idmançıları yenidən idmana qaytarmaq idi və bu, baş verdi. Bu gün idmançı Azərbaycanda çox hörmətli adamdır. Hökumət onlara mükafat, çoxlu imtiyazlar verir, dövlət səviyyəsində keçirilən təşviqat kampaniyalarında biz onların təkcə necə döyüşdüyünü yox, həm də necə davrandığını, gənc nəslə necə münasibət göstərdiklərini nümayiş etdiririk. Həqiqətən də cəmiyyətin maariflənməsi və sağlamlığı üçün idmanın çox böyük təsiri var. Siz etdiklərinizi təkcə idman naminə etmirsiniz, bunu dünya üçün, sülh üçün edirsiniz. Ailəniz çoxmillətli, müxtəlif etnik mənsubiyyətli, çoxkonfessiyalıdır. Siz sülhsevər, eyni zamanda, çox güclü, həmişə özünü, ətrafındakı insanları müdafiə etmək iqtidarında olan, lakin gücündən və döyüş qabiliyyətindən yaxşı əməllər üçün istifadə edən insanlar kimi dünyanın necə fəaliyyət göstərməli olduğunu nümayiş etdirirsiniz. Ona görə, mən sizi təbrik etmək istəyirəm. Ümidvaram ki, gələcəkdə də Bakıda görüşəcəyik.

Sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya idmanın boks növünə verdikləri dəstəyə görə WBC çempion kəmərləri xatirə hədiyyəsi olaraq təqdim edildi. Sonda xatirə şəkilləri çəkdirildi.










# Gintaras Visotskas. Seymin Antikorrupsiya Komissiyasının sədri Vitaliyus Qaylyusa açıq məktub

***Mən "açıq məktub" yazmağı xoşlamıram, lakin başqa çıxış yolum yoxdur. Seymin Antikorrupsiya Komissiyasının sədri Vitaliyus Qaylyus mənim ona hələ 2015-ci ildə verdiyim sualların heç birinə cavab verməyib. Buna görə onun bu il - 2017-ci ildə də lütfkarlıq göstərib mənə izahat verəcəyinə inanmıram. Gintaras Visotskas Seymin Antikorrupsiya Komissiyasının sədri Vitaliyus Qaylyusa açıq məktubunu bu sözlərlə başlayır. AZƏRTAC məktubu təqdim edir.***

## Antikorrupsiya Komissiyasının sədrinə məktub

Buna görə də açıq məktub yazmağım labüddür, xüsusən ona görə ki, məsələ ciddidir. Son dərəcə ciddi bir komissiyanın rəhbərinin bu il sentyabrın 6-da nümayiş etdirdiyi davranış çox yersizdir. Bu davranış istər adı çəkilən komissiyaya, istərsə də Seymin özünə etimadı gücləndirmir. Parlament üzvünün hərəkətləri ən azı Litvanın beynəlxalq nüfuzuna ziyan vuran ikili standartların mövcud olmasını nümayiş etdirir.

Fikmin daha aydın olması üçün əvvəlcə sentyabrın 6-da Seymin rəsmi saytında dərc edilmiş, Seymin Antikorrupsiya Komissiyasının rəhbəri, deputat V.Qaylyusun imzaladığı məlumatı sitat gətirirəm. Antikorrupsiya Komissiyası "Organized Crime and Corruption Reporting Project" (OCCRP) Beynəlxalq Jurnalist Təhqiqatları Mərkəzinin pulların yuyulması ehtimalı haqqında, Azərbaycanın Avropanın vəzifəli şəxslərinə iri məbləğdə pul köçürməsi haqqında hesabatında göstərilən informasiyaya cavab" olan rəsmi məktubunda Maliyyə Cinayətlərinin Təhqiqatı Xidmətinə (MCTX) müraciət edib. Antikorrupsiya Komissiyası həmin informasiyada göstərilən şəxslərin barəsində görülən preventiv tədbirlər və onların Litva ilə mümkün əlaqələri barəsində komissiyaya məlumat verilməsini xahiş edir. Pulların yuyulmasının və terrorçuların maliyyələşdirilməsinin prevensiyası haqqında qanuna görə bu məsələ həmin xidmətin səlahiyyətlərinə aiddir".

Seymin üzvü V.Qaylyus ilk baxışda özünü düzgün aparır. Sayıqlıq zəruridir. Lakin gəlin bu məsələyə daha diqqətlə baxaq.

## Qəribə dostluq

V.Qaylyusun belə bir məktubu imzalamağa mənəvi haqqı varmı? Yoxdur. O, ədalət naminə bu işdən çəkinməli idi, çünki o, Ermənistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər məsələsində açıq-aydın qərəzli mövqe tutur.

Ermənistanı sevən və Azərbaycana şübhə ilə baxan Litva vətəndaşları heç bir pis iş görmürlər. Litva qanunları Ermənistanın Litvaya Azərbaycandan daha yaxın olduğunu hesab etməyi qadağan etmir, lakin Litva nümayəndələri, xüsusən rəsmi şəxslər dolayı yolla da olsa, Azərbaycanın Dağlıq Qarabağ üzərində həm NATO, həm Avropa İttifaqı, həm də Litvanın özü tərəfindən tanınmış hüququna mübahisə etməyə başlayanda təhlükəli vəziyyət yaranır. Bu halda aşkar ikimənalılıq görünür: əgər biz Ukraynanın, Gürcüstanın, Moldovanın ərazi bütövlüyünə hörmət ediriksə, onda Azərbaycanın Dağlıq Qarabağı özünə qaytarmaq hüququnu da dəstəkləməliyik.

V.Qaylyus məhz Dağlıq Qarabağ məsələsində Litvanın mövqeyinə dolayısı ilə şübhə edənlərdən biridir. Seymin əvvəlki çağırışında o, Dağlıq Qarabağ ilə (Ermənistanla yox, məhz Dağlıq Qarabağı işğal etmiş və indi orada ağalıq edən hakimiyyətlə) liberal Dalya Kuoditenin rəhbərlik etdiyi Dostluq Qrupuna mənsub idi. Buna görə də onun barrikadanın hansı tərəfində olduğunu anlamaq çətin deyil (2015-ci ilin əvvəlində mən



*Soldan sağa: muzeyin direktoru Euqeniyus Peykştyanis və LGGRTC (Litva sakinlərinin soyqırımı və müqavimətini araşdırma mərkəzi) rəhbəri Birute Barauskayte; sağdan birinci – Ermənistan səfiri Tiqran Mkrtçyan.*

ona məktub yazıb xahiş etmişdim ki, bu qrupun fəaliyyətində iştirak etməyə nə üçün razılaşdığını izah etsin, lakin ondan cavab almadım).

Antikorrupsiya Komissiyasının sədri məhz bu cür qəribə "dostluq" ucbatından ən azı "göz aldatmaq" üçün məktubu öz müavininin imzalamasına icazə verməli idi. Əgər o, özünün ermənipərəst əqidəsini açıq etiraf etmiş olsaydı, bu gün daha abırlı görünərdi.

## Qəribə tələskənlik

Lakin Dağlıq Qarabağı işğal etmiş qüvvələrlə açıq-aşkar "qardaşlaşma" cəhdləri və eyni zamanda, Litvanın rəsmi baxışlarında gizli şübhələr V.Qaylyusun atdığı yeganə qəribə addım deyil. V.Qaylyusun qəribə tələskənliyi də diqqəti cəlb edir. Sentyabrın əvvəlində 15min.lt portalında pulların yuyulması ehtimalı haqqında məqalə dərc edildən bir gün sonra Antikorrupsiya Komissiyasının SRFP rəhbərliyinə obrazlı şəkildə desək, Azərbaycanın Litva siyasətçilərini pul gücünə ələ alıb-almadığının aydınlaşdırılması barədə ünvanlanmış xahişi dərc olundu.

Mən 15min.lt portalında dərc edilmiş yazını dəstəkləməyə və ya təkzib etməyə hazırlaşmıram. Həqiqətən Avropada korrupsiyaya qurşanmış, vicdansız, tamahkar siyasətçilər var. Avropa - müqəddəs inək deyil.

Amma hər halda, Seymin Antikorrupsiya Komissiyasının sədri nəyə görə öz müavinlərindən xahiş etməyib ki, onlar bu jurnalist təhqiqatını daha diqqətlə araşdırsınlar? Axı bir sutka ərzində bütün nüansları dəqiqləşdirmək çətindir. Məsələn, jurnalist təhqiqatının təşəbbüskarları arasında Qərbdə nüfuzlu erməni diasporunun və rəsmi Yerevanın erməni mənşəli jurnalistləri yoxdurmu?

## Qəribə susqunluq

Lakin ən maraqlısı budur ki, təxminən yarım il bundan əvvəl Avropa parlamentarilərinin Azərbaycan rəhbərliyinə qəsdən, qərəzli, məqsədyönlü şəkildə qarayaxmaları üçün Ermənistanın onları pul gücünə ələ almaq cəhdləri məlum olanda cənab V.Qaylyus nə üçün susurdu?

Bu il baharda və yayda Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzinin (European Strategic Intelligence and Security Center) dərc etdiyi məlumatı Seymin Antikorrupsiya Komissiyasına açıq-aşkar xatırladıram. Bu kəşfiyyat təşkilatı 2002-ci ildə Brüsseldə təsis edilib.

Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzinin rəhbərlərindən biri - 59 yaşlı Klod Monike Fransa kəşfiyyatının (Fransa Xarici Kəşfiyyatının baş direksiyasının) keçmiş işçisidir. Onun işinin spesifikası kəşfiyyat məlumatlarını təhlil etməkdir. Jurnalist fəaliyyəti onun üçün pərdə idi. K.Monike terrorizm, casusluq, mütəşəkkil cinayətkarlıq, beynəlxalq münaqişələr üzrə ixtisaslaşıb. O, Nyu-Yorkda 11 sentyabr terror aktları haqqında kitab yazıb. K.Monikenin kitabları çox populyardır.

Təşkilatda ikinci şəxs 20 ildən artıq müddətdə təhqiqat jurnalistikası ilə məşğul olan Jenovefa Etyendir. Üçüncü şəxs 57 yaşlı sosioloq, Yaxın Şərq üzrə tanınmış mütəxəssis Uilyam Rasimoradır. Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzinin maraq dairəsi Qərb sivilizasiyası üçün təhlükə doğuran təhdidlərdir.

## ESISC kəşfiyyat təşkilatının müşahidələri

Bəs bu təşkilat özünün rəsmi www.esisc.org saytında nə dərc etmişdi? O, erməni diasporundan olan lobbiçilərin dəstəklədikləri qərəzli Avropa parlamentariləri qrupunun Mərkəzi və Şərqi Avropa dövlətləri ilə ünsiyyətdə Avropa ölkələri hökumətinə güclü təsir göstərmək məqsədi olduğunu bildirirdi. Avropa parlamentarilərinin diqqət mərkəzində Azərbaycan da var. ESISC analitiklərinin sözlərinə görə, bu qrup Azərbaycana qarşı bütöv tədbirlər arsenalı hazırlayıb, həmin tədbirlərin köməyi ilə beynəlxalq rəyə çox böyük, lakin gizli təzyiq göstərilir.

Lakin ESISC hesabatının müəlliflərinin sözlərinə görə, ən maraqlısı odur ki, Avropa parlamentarilərinin nüfuzlu, çoxsaylı antiazərbaycan və eyni zamanda, ermənipərəst lobbi qrupu məhz 2012-ci ildə - Avropa strukturlarında "məlum şəxsin" mühüm vəzifəyə təyin olunduğu vaxt formalaşmışdı.

ESISC analitikləri bildirirlər ki, bu şəxs beş ildən artıq müddətdə Avropa Şurasının insan haqları üzrə komissarı vəzifəsində işləmiş latış Nil Muyjniyeksdir. Bir sözlə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT), Avropa Şurası Parlament Assambleyasının siyasətçiləri ilə xaricdəki erməni diasporu, Ermənistandan olan məmurlar və Corc Soros Fondu arasında gizli əlaqələr sadalanır ki, Dağlıq Qarabağ Ermənistanın ərazisi kimi tanınsın - bu isə heç də az sensasiya deyil.

Yeri gəlmişkən, hesabatın ikinci hissəsində N.Muyjniyeksə xüsusi diqqət yetirilir. ESISC-in hesabatına görə, 2012-ci ildə AŞPA-ya seçilmiş Muyjniyeks avropalı diplomatları, Ermənistanın rəsmi vəzifəli şəxslərini, erməni lobbiçilərini, qeyri-hökumət təşkilatlarını və Corc Soros Fondunu birləşdirən gizli şəbəkənin əsas nümayəndəsinə çevrilib. ESISC analitiklərinin fikrincə, bu latış Avropa strukturlarında tutduğu nüfuzlu rəsmi vəzifədə mühüm rol oynayır, rəsmi Yerevanın Dağlıq Qarabağ barəsində maraqlarını Avropaya qəbul etdirir. O, Avropanın yeni siyasətçilərini də özünün erməni-pərəst fəaliyyətinə cəlb etməyə çalışırdı. Qeyd etmək lazımdır ki, Şimal ölkələrindən və Baltikyanı dövlətlərdən (bu məqama xüsusi diqqət yetirək - müəllifin qeydi), Niderlanddan və Almaniyadan olan siyasətçiləri xüsusi canfəşanlıqla "ovlayırdılar".

ESISC-in hesabatına daxil edilmiş cədvəldə göstərilir ki, son beş ildə N.Muyjniyeksin Avropa İnsan Haqları Şurasının komissarı olduğu dövrdə Avropada antiazərbaycan əhval-ruhiyyəsi güclənib. Məhz onun rəhbərliyi dövründə AŞPA-nın rəsmi plenar iclaslarından əlavə, Ermənistana xeyir verən, Ermənistan və Rusiya silahlı dəstələrinin təcavüzü nəticəsində Dağlıq Qarabağı (azərbaycanca - Qara Bağ) itirmiş Azərbaycana ziyan vuran qeyri-rəsmi iclaslar da keçirilib. N.Muyjniyeksin qrupunu bir məsələ narahat etmirdi ki, onların fəaliyyəti beynəlxalq hüququ və Avropada qərarlaşmış ərazi bütövlüyü prinsiplərini açıq-aşkar pozur. N.Muyjniyeks özünü elə aparırdı ki, guya BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal etmiş və bütün azərbaycanlıları oradan qovmuş Ermənistanın hərəkətlərini pisləyən qətnamələrindən (822, 853, 874, 884 nömrəli) xəbəri yoxdur.

Hesabatda N.Muyjniyeksdən başqa Ermənistanın mövqeyini süni şəkildə irəlilədən bir neçə avropalı siyasətçinin soyadları da xatırlanır: Piter Omtsiqt, Kristof Ştrasser, Frank Şvabbe və Tini Koks. Onlar N.Muyjniyeksin Azərbaycanı daim tənqid edən, Ermənistanı isə regionda az qala nümunəvi dövlət elan edən qrupuna aid olunur. Yeri gəlmişkən, artıq yeni intriqa başlanıb. N.Muyjniyeksin mandatı əbədi olmayacaq. Onu kim əvəz edəcək?

## Bağışlanılmaz səhlənkarlıq

Bir sözlə, bu ilin ortalarında esisc.org portalında dərc edilmiş, iki hissədən ibarət hesabatı V.Qalyus "goplayıb". Mənim fikrimcə, bu, bağışlanılmaz səhlənkarlıqdır. Ona görə ki, Avropa İttifaqı təcavüzkar Ermənistanın (deməli həm də Rusiyanın, çünki hazırda Rusiyanın hərbi bazası Ermənistanda dislokasiya edilib) maraqlarının girovuna çevrilməməli idi. Buna görə də bir məsələ açıq qalır: Seymin Antikorrupsiya Komissiyasının rəhbəri nəyə görə Litvada Ermənistan siyasətçiləri tərəfindən deyil, yalnız Azərbaycan siyasətçiləri tərəfindən pul gücünə ələ alınmış şəxsləri axtarır? Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyənin tarixi ilə maraqlanan bu sətirlərin müəllifi hesab edir ki, Litvada ermənilərin mövqeləri çox möhkəmdir. Şübhəli dərəcədə möhkəmdir.

Ardı Səh. 7

# Gintaras Visotskas. Seymin Antikorrupsiya Komissiyasının sədri Vitaliyus Qaylyusa açıq məktub

Əvvəli Səh. 6

## Ermənistanın şübhəli dərəcədə güclü təsiri

Klaypedada, Kaunasda və Şyaulyayda neçə erməni xaçı - Xaçkar qoyulduğunu saymaq lazımdır. Amma azərbaycanlıların Litvada Xocalı qurbanlarının şərəfinə abidə qoymalarına icazə verilməyib. Bu, təsadüfdürmü? Litva Seymində Azərbaycandan zorla qoparılmış Dağlıq Qarabağla dostluq qrupu yaradılıb. Lakin siz eşitmisinizmi ki, Seymin Milli Təhlükəsizlik Komitəsi, Litva Xarici İşlər Nazirliyi və ya Dövlət Təhlükəsizliyi Departamenti açıq xəbərdarlıq etsinlər ki, Litvanın bu cür "dostluğu" Moldovanı, Gürcüstanı və Ukraynanı terror edən separatçılarla dostluğa oxşayır?

Litvada hər il həm Ermənistan, həm də Azərbaycan üçün ağrılı tarixlər qeyd edilir. Lakin Litva sakinlərinin soyqırımı və müqavimətini araşdırma mərkəzinin rəhbəri Birute Barauskayte və Qurbanlar muzeyinin direktoru Euqeniyus Peykştyanis yalnız ermənilərin tədbirlərinə gedirlər.

Bu il Ermənistandan gəlmiş və özünü dünyanın heç bir yerində tanınmayan qondarma "Dağlıq Qarabağ respublikası"nın təmsilçiləri adlandıran nümayəndə heyəti Litvada qonaq olub. Ermənistan nümayəndə heyətini ən azı Seymin bir üzvü - Povilas Urbşis müşayiət edirdi. Varenski rayonunun meri Alqis Kaşeta da həmin nümayəndə heyətini qəbul etdi. Lakin Xarici İşlər Nazirliyi bizim rəsmi siyasətçilərin dünyada tanınmamış bir "dövlətlə" qucaqlaşmasını pislədimi?Litva nəşrləri də özlərini qəribə aparırlar. Məsələn, bu il yayda Ermənistan ilə Azərbaycan arasında ciddi atışmalar qeydə alınıb. Mən Litva mətbuatında Ermənistanın hücumlarından sonra mülki azərbaycanlıların, o cümlədən iki yaşlı uşağın və onun nənəsinin həlak olması barədə xəbər tapmadım. Amma Azərbaycanın əks hücumundan sonra sərhəddə bir neçə erməni əsgərinin




həlak olması barədə Litva nəşrlərində çoxsaylı hesabatlar dərc edildi.

Məsələn, 15min.lt portalı Azərbaycan üçün əlverişsiz məqalələr dərc etmək imkanını heç vaxt əldən vermir. Amma Ermənistanda mövcud olan iğtişaşlar, Ermənistanın korrupsiyaya qurşanmış prezidenti Serj Sarkisyan və onun ətrafındakı rejim barədə söhbət açan müəlliflərin yazıları dərc edilmir. Bunun səbəbini heç izah da etmirlər. Bəlkə onlar fikirləşirlər ki, Serj Sarkisyan kristal kimi təmizdir?

Litvada hansı nəşr heç olmasa hərdənbir Azərbaycanın arqumentlərini, məsələn, yuxarıda qeyd etdiyimiz antiazərbaycan təhqiqatı barədə Trend xəbərlər xidmətinin Rusiyadakı rəhbəri Elmira Tarıverdiyevanın fikirlərini dərc etməyə risk edər?

## Azərbaycanın arqumentləri

Bir neçə parçanı diqqətinizə çatdırıram: "(...) Qətnamədə ünvanlı şəkildə yalnız bir ölkə - Azərbaycan xatırlanır. Bu Qətnamə antiazərbaycan yanaşmanın aşkar sübutudur (...).

Bütün bunlar erməni mənşəli bir qisim jurnalistin "təhqiqatı" ətrafında qurulub. Məgər təəccüblü deyilmi? Doğrudur, jurnalistlərin heç biri Avropa Parlamentində Bakının maraqlarının uydurma lobbiçiliyinin qəribə nəticəsi barədə fikirləşməyib - təkcə 2009-cu ildə Azərbaycana aid 9 tənqidi qətnamə qəbul edilib. Yəni, doğrudanmı Azərbaycan özünün tənqid edilməsi müqabilində kiməsə pul ödəyib? Lakin görünür, belə xırda məsələlər jurnalistləri və Avropa parlamentarilərini ümumiyyətlə maraqlandırmır (...).

Qəribə haldır ki, jurnalistlərin fikirləşib tapdıqları sxemin belə adlandırılan "ifşaları" sentyabrın 5-də dərc edilib, Avropa Parlamentinin qətnaməsinə əlavə edilmiş Azərbaycana aid düzəliş isə artıq ayın 7-də hazır idi. Elə bil müəlliflər sənədin hazır mətnini əllərində tutub siqnal gözləyirdilər. Bu, Bakıya qarşı yönəlmiş sinxron hərəkətlərin gözəl illüstrasiyasıdır. Bu barədə göstəriş vahid mərkəzdən gəlir. Məqsəd də aydındır - Şərq Tərəfdaşlığının Brüssel Sammiti ərəfəsində Bakı ilə Avropa İttifaqı arasında inkişaf etməkdə olan münasibətləri məhv etmək və Azərbaycanın yüksək səviyyəli nümayəndə heyətinin həmin Sammitdə iştirakına mane olmaq.

Yenə sübut lazımdırmı? Bunun üçün təkcə Azərbaycan əleyhinə düzəlişin müəllifinə nəzər salmaq kifayətdir. Bu, Avropa Parlamentinin deputatı, Bakıda bədnam şöhrətli Renatas Yuşkanın ən yaxın dostu Petras Auştryaviçyusdur (R.Yuşka da P.Auştryaviçyusun Avropa Parlamentində müşaviridir - müəllifin qeydi).

Yuşka 2013-cü ildə baş vermiş qalmaqaldan sonra məşhurlaşdı. Həmin hadisədən sonra Litvanın keçmiş Prezidenti Dalya Qribauskayte bu ölkənin Azərbaycandakı səfiri Arturus Jurauskasın və Macarıstandakı səfiri Renatas Yuşkanın geri çağırılması barədə sərəncam imzaladı. O vaxt bu iki şəxsin qeyri-rəsmi söhbətinin yazısı şəbəkəyə düşmüşdü. Onlar deyirdilər ki, ermənilər dini mənsubiyyətinə görə xristian olduqları üçün Dağlıq Qarabağ münaqişəsi məsələsində onları dəstəkləmək, Dağlıq Qarabağı ermənilər kimi "Artsax" adlandırmaq və ermənilərə kömək edənləri dəstəkləmək lazımdır".

Beləliklə, Avropada neçə siyasətçinin Ermənistan-Azərbaycan münaqişəsinə qərəzli yanaşması məsələsini təhqiq etmək zəruridir, lakin bu təhqiqat birtərəfli olmamalıdır. Belə deyilmi, cənab V.Qaylyus?

---

## "The Washington Times": Azərbaycan - dini tolerantlıq diyarı

"The Washington Times" qəzetində "Azərbaycan - dini tolerantlıq diyarı" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının mətbuat katibi Konstantin Atanın, Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayevin və Bəhai dini icmasından Ramazan Əsgərlinin fikirləri yer alıb. Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının mətbuat katibi Konstantin Ata deyib ki, Azərbaycanda müxtəlif xalqların, fərqli etnik qrupların nümayəndələri tarix boyu birgə sülh və əmin-amanlıq şəraitində yaşayıblar. Azərbaycan xalqı digər millətlərin nümayəndələrinə sevgi, mehribanlıq aşılayır.


The Washington Times
HOME · NEWS · OPINION · SPORTS · MARKET · SUBSCRIBE

Azerbaijan: The land of religious tolerance

Father Constantin, Press Secretary of Baku-Azerbaijan Eparchy of Russian Orthodox Church

In Azerbaijan's long history, many nationalities and different ethnic groups have lived together, and the Azeri people have developed a mentality of love and kindness to other people. And history didn't record any conflict between Christians, Jews and Muslims, the three main denominations in Azerbaijan. Even when idol worshippers lived here, such conflicts didn't happen.

Azərbaycanda tarix boyu heç vaxt xristianlar, yəhudilər və müsəlmanlar arasında münaqişə olmayıb. "Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm və tolerantlıq siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda fikir azadlığı, din azadlığı mövcuddur", - deyə Konstantin Ata əlavə edib.

Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev deyib: "Mən hər zaman yəhudilərə deyirəm ki, əgər sizin yaşamağa yeriniz yoxdursa, o zaman Azərbaycana gəlin. Biz Azərbaycanda iki min ildir ki, yaşayırıq və bundan sonra da yaşayacağıq. Biz Azərbaycanda müxtəlif dini və etnik qrupların nümayəndələri ilə sülh şəraitində yaşayırıq. Azərbaycan hökuməti bizim dilimizi və dinimizi qorumaq üçün hər cür şərait yaradıb. Biz Azərbaycan Konstitusiyasında qeyd edilmiş bütün hüquqlardan və üstünlüklərdən faydalanırıq. Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın hər bir vətəndaşının prezidenti olduğunu vurğulayır. Biz bu bəyanatın real həyatda şahidiyik".

Bəhai dini icmasından Ramazan Əsgərli qeyd edib ki, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarix boyu öz mədəniyyətini inkişaf etdirib. "Azərbaycan xalqı digər mədəniyyətlərə və millətlərə münasibətdə tolerantlıq, mehribanlıq nümayiş etdirir. Azərbaycan hökuməti bu mədəniyyəti qorumaq üçün geniş şərait yaradıb və multikulturalizmi dövlət siyasəti kimi qəbul edib. Bəhai yazılarında azərbaycanlılar zəngin və qədim mədəniyyəti olan sülhsevər insanlar kimi təsvir edilirlər. Bəhai dini icmasından olanlar bu əlverişli şəraitdən yararlanır və cəmiyyətimizin inkişafına töhfələrini verirlər. Bizim inancımızı yerinə yetirməyə şərait yaratdığına görə Azərbaycan hökumətinə minnətdarıq", - deyə R.Əsgərli əlavə edib.

## Kubanın ölkəmizdəki səfiri gənclərə "Beynəlxalq əlaqələr və diplomatiya" mövzusunda təlim keçib




Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin ofisində Kubanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo gənclər üçün "Beynəlxalq əlaqələr və diplomatiya" mövzusunda təlim keçib. YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov rəhbərlik etdiyi təşkilat haqında diplomata məlumat verib. O, Azərbaycan və Kuba arasında diplomatik münasibətlərin Ulu öndər Heydər Əliyev tərəfindən təməlinin qoyulması, ötən müddət ərzində iki ölkə arasındakı əlaqələrin inkişaf etdiyini vurğulayıb. Səfir Alfredo Nieves Portuondo isə Kubanın Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla əlaqələrin daha da dərinləşməsinə ciddi maraq göstərdiyini deyib. YAP Gənclər Birliyinin ofisində ilk dəfə olduğunu bildirən səfir Azərbaycan gənclərinin hərtərəfli inkişafının böyük məmnunluq doğurduğunu qeyd edib, ölkəmizdəki diplomatik fəaliyyəti müddətində YAP ilə əlaqələrin inkişafı istiqamətində səyini əsirgəməyəcəyini vurğulayıb.

Tədbirdə əməkdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, əlaqələrin daha da genişləndirilməsinin zəruriliyi qeyd edilib.

Sonda səfir "Beynəlxalq əlaqələr və diplomatiya" mövzusunda təlim keçib, təlimdə gənclərin sualları cavablandırılıb. Qeyd edək ki, təlimdə 60-dan çox gənc iştirak edib.

## GUAM-ın XİN başçıları Tbilisidə görüşəcək

GUAM ölkələri xarici işlər nazirlərinin görüşü oktyabrın 8-də Tbilisidə keçiriləcək. SİA-nın məlumatına görə, bunu bu gün Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda ukraynalı həmkarı Pavlo Klimkin ilə görüşdən sonra mətbuat konfransında deyib. Nazir qeyd edib ki, görüş qurumun yaradılmasının 20 illiyinə həsr olunacaq: "Azərbaycan təşkilatın inkişafında maraqlıdır. Bu gün ukraynalı həmkarımla GUAM ölkələri ərazisindən tranzit məsələsini müzakirə etdim. Fikrimcə, bu məsələ bütün üzv dövlətlər üçün səmərəli olacaq".

Öz növbəsində, Ukraynanın xarici işlər naziri P.Klimkin bildirib ki, GUAM ölkələri eyni siyasi çağırışlarla üz-üzədir: "Təşkilatın hər bir üzv ölkəsini sürətli iqtisadi artım gözləyir. Biz bir sıra birgə iqtisadi layihələr həyata keçirə bilərik. Hesab edirəm ki, Xəzər və Qara dəniz ölkələrini birləşdirən unikal əməkdaşlıq modelimiz var".

# Tarixi xilasımızın başlanğıc yolu

***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqın və dövlətin müstəqilliyi, inkişafı naminə gördüyü işlər, tarixi proseslərə təsiri Onu xalqın qəlbində əbədi olaraq yaşadır. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq Ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində, o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi və fədakarlığı Onu bütün dünya azərbaycanlılarının lideri etmişdir.***




Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə böyük siyasətdə qarşıya qoyduğu hədəflərə doğru irəliləyərək, xalqdan dəstək alaraq, müasir Azərbaycan dövlətinin Qurucusu və Memarı oldu.

Azərbaycan tarixinin 30 ildən artıq bir zamanı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər hakimiyyətdə olduğu illərdə xalqımızı çətin sınaqlardan çıxararaq, müasir Azərbaycan dövlətini qurub inkişaf etdirərək, dünyada tanıtmışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətsizlik, özbaşınalıq, xaos və anarxiya hökm sürürdü. Azərbaycanda yaranmış dözülməz şərait, ölkənin vətəndaş müharibəsi, parçalanma və dağılma təhlükəsi ilə üzləşməsi, Ermənistanın hərbi təcavüzünün genişlənməsi qəti addımların atılmasını və hakimiyyətin etibarlı əllərə tapşırılmasını tələb edirdi. Artıq mövcud hakimiyyətsizlikdən və özbaşınalıqdan cana doymuş xalq ölkənin xilasını yalnız Ümummilli Lider Heydər Əliyevdə görür, ümidlərini Ona bağlayırdı. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmişdir. Xalqın çağırışı ilə Ümummilli Lider 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlmişdir. Bu qayıdış Vətənin xilası və xalqın qurtuluşu idi. İndi siyasi baxışlarından və dünyagörüşündən asılı olmayaraq, hər kəs etiraf edir ki, əgər tarixə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə 1993-cü ilin 15 iyununda Ulu Öndərimizin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratiya yolunda inamla irəliləyən Azərbaycan dövləti haqqında danışa bilməzdik.

Vətənin ağır günündə xalqın iradəsi ilə böyük siyasətə qayıdan Dahi Şəxsiyyət Heydər Əliyev bacarıqlı dövlət xadimi kimi ölkəmizi düşdüyü çətin vəziyyətdən və müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etdi. 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan həmin seçkidə Ulu Öndər Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin gün xalqımız özünün gələcək taleyini və müqəddəratını həll edən seçim etdi. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Dahi Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu Öndər 98,84 faiz səslə Azərbaycan Prezidenti seçildi. Ulu Öndər Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, Onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamdan qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi Liderə ehtiyacı var.

Bu tarix həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır. Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq, Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdi: "Bu gün mənim üçün tarixi və əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə, Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Xalqımızın çox ağır günlərində hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində, Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən qanunsuz silahlı dəstələr ləğv edildi, ölkədə sabitlik yaradıldı. Bu sabitlik müstəqil Azərbaycanın tarixində inkişaf və tərəqqiyə gedən yolun başlanğıcı oldu. Ulu Öndərin müdrik siyasəti nəticəsində ölkə iqtisadiyyatında tənəzzül prosesinin qarşısı alındı, inflyasiyanın səviyyəsi minimal həddə endirildi. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin Müqaviləsi"nin imzalanması, böyük investisiya qoyuluşlarının reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə və yeni iş yerlərinin açılmasına imkan verdi. Bir sözlə, Ulu Öndərin 1969-cu ildən başladığı quruculuq xəttini 1993-cü ildən sonra davam etdirməsi hərtərəfli inkişaf edən və regionda liderə çevrilən müstəqil Azərbaycan Respublikasının yaradılmasına səbəb oldu.

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNDƏ ATƏŞKƏSİN ƏLDƏ EDİLMƏSİ ORDU QURUCULUĞUNDA KÖKLÜ İSLAHATLARIN APARILMASI ÜÇÜN ƏLVERİŞLİ İMKAN YARATDI

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, güclü və nizam-intizamlı ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, hakimiyyətə qayıdışından dərhal sonra bu məsələyə əsas prioritet kimi yanaşmağa və böyük diqqət ayırmağa başladı. Bir müddət sonra 1994-cü ildə Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, silahlı qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu.

Ümummilli Liderin qarşıya qoyduğu ümdə vəzifələrdən biri də milli dövlət quruculuğunu həyata keçirmək idi və bu məsələ də qısa zaman kəsiyində həllini tapdı. Ölkəmizdə demokratik-hüquqi və dünyəvi dövlət quruldu.

1993-cü il 3 oktyabr seçkilərinin bəhrəsi bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında daha aydın görünür. Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizi iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına yüksəldib. Ölkəmizin artan nüfuzunun göstəricisidir ki, regionda həyata keçirilən mühüm layihələr Azərbaycanın icazəsi olmadan reallaşmır. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP kimi beynəlxalq enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın dünyadakı siyasi və iqtisadi qüdrətini günbəgün artırmaqdadır. Bu gün Ulu Öndər Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru sayılan "Əsrin Müqaviləsi"nin imzalanmasından 23 il ötür. 1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin Müqaviləsi" kimi təşəkkül tapan neft müqaviləsi Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdəndir. Ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı. "Əsrin Müqaviləsi"nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. 1994-cü ildən bu günə qədər ölkəmizə milyardlarla dollar həcmində xarici investisiyalar yatırıldı, neft sektorunun inkişafı isə özlüyündə qeyri-neft sektorunun da inkişafını təmin etdi. Digər tərəfdən, bu, iqtisadi inkişa-

# Tarixi xilasımızın başlanğıc yolu






fın təməlinin qurulmasına imkan yaratdı. Məhz bu layihədən əldə olunan gəlir sayəsində Azərbaycan vətəndaşlarının sosial təminatının yüksəldilməsi istiqamətində əsaslı addımlar atıldı, müxtəlif layihələr həyata keçirildi. Ölkədə sabitliyin yaranması isə yeni-yeni sahələr üzrə investisiyaların Azərbaycana cəlb olunmasına köməklik göstərdi. Bu yaxınlarda -sentyabrın 14-də isə Bakıda Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib olunmuş Saziş imzalandı. Bu, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövrün başlanması kimi qiymətləndirilib. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək.

## BU GÜN AZƏRBAYCAN CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİK QARANTIDIR

Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycan bu gün Onun siyasi davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir. Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb.Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar.Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 13 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir:"İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. "Bu hadisə, təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində", - deyən Prezident İlham Əliyev Azərbaycan əleyhinə birləşən qüvvələrə qarşı bu inam və diqqətin ölkəmizin gücünü və iradəsini bir daha ortaya qoymuş olduğunu bildirib.



## AZƏRBAYCANIN BUGÜNKÜ REALLIQLARININ TƏMƏLİNDƏ PREZİDENT İLHAM ƏLİYEVİN QƏTİYYƏTİ, ƏZMKARLIĞI VƏ ULU ÖNDƏRİN İRSİNİN LAYİQİNCƏ YAŞADILMASI DAYANIR

Bu gün Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edir və multikultural bir dövlətdir. Tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub-saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin və mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib.

Azərbaycanda multikultural münasibətlərin uğurlu həlli əsas etibarilə cəmiyyətin özünəməxsusluğu və spesifik dövlət siyasətinin tənzimləyici faktor kimi çıxış etməsindən irəli gəlir. Ulu Öndər Heydər Əliyev Azərbaycan reallığındakı müxtəlifliklə bağlı fikirlərini belə ifadə edib: "Dövlət və ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Bu gün Azərbaycan, sözün həqiqi mənasında, dünyada tolerantlığa nümunə olan ölkədir. Azərbaycanda 7 sinaqoq, 4 gürcü kilsəsi fəaliyyət göstərir. Hətta Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə baxmayaraq, Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin güclənməsinə də töhfələrini verməkdədir.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycanın ötən illərdəki uğurlarının fonunda işlənib- hazırlanan və təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmağa istiqamətlənib. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş rəqabətqabiliyyətli ölkə olacaq.

Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində iqtisadiyyatın inkişafında neft amilinə verilən yüksək dəyərin nəticəsi, təbii ki, Azərbaycanın bugünkü reallıqlarıdır. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndərin irsinin layiqincə yaşadılması dayanır.

***Zümrüd BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası dövlətçiliyə və xalqa xidmət edən ümumxalq partiyasıdır





***Dünən YAP Yasamal rayon təşkilatının Həsən bəy Zərdabi 88 A ünvanında yerləşən ərazi ilk partiya təşkilatının Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbiri keçirildi.***

Tədbirdən öncə Dövlət Himni səsləndirildi. Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədr müavini İbad Abbasov Yeni Azərbaycan Partiyasının yaranma tarixinə qısa nəzər salaraq, o dövrün çətinliklərindən danışdı. Qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin və xalqımızın həyatını kökündən dəyişməklə yanaşı, həm də Azərbaycanın həyatında yeni mərhələnin əsasını qoydu: "YAP tarixi zərurətdən yaranaraq, qısa zaman kəsiyində ümumxalq partiyaya çevrildi və bu gün 700 mindən artıq üzvü ətrafında birləşdirib".

Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov YAP-ın yaranmasının müasir tariximizin ən mühüm ictimai-siyasi hadisələrindən biri olduğunu bildirdi: "Bu gün siyasi mübarizələrlə dolu şərəfli bir yol keçən Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin avanqard qüvvəsi kimi xalqımızın həyatında mühüm rol oynayır. YAP hər zaman dünəninə hörmət və gələcəyinə rəğbətlə yanaşır. Bu da partiyamızda yaşlı nəsillə bərabər, qadınlara, gənclərə olan inamın təcəssümüdür. Ona görə də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının nüfuzu gündən-günə artmaqdadır. Sıralarını daim kəmiyyət və keyfiyyət etibarilə genişləndirən Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyası kimi xalqımızın həyatında öz sözünü deməyə qadir olan partiyadır".

Rayon təkilatının sədri bildirdi ki, hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətləri sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunub-saxlanılmasında və inkişaf etdirilməsində Yeni Azərbaycan Partiyasının xidmətləri danılmazdır və misilsizdir.

T.Əhmədov vurğuladı ki, hər zaman Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ideyalarını yaşadan YAP gələcəkdə də Ulu Öndərin siyasi məktəbinin, Onun yolunun və ideyalarının davamçısı olacaq. O, tədbir iştirakçılarını tarixi gün - Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibəti ilə təbrik etdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Məlahət İbrahimqızı: "1993-cü il 3 oktyabr gününü unutmamalıyıq, təbliğ etməliyik"

***"1993-cü il 3 oktyabr Azərbaycan xalqının və dövlətinin tarixində böyük əhəmiyyəti olan bir gündür. Azərbaycan xalqı o tarixi günü heç vaxt unutmayacaq". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Məlahət İbrahimqızı bildirib. Onun sözlərinə görə, AXC-Müsavat hakimiyyəti dönəmində ölkədə tənəzzül, vətəndaş müharibəsi, torpaqlarının işğalı, bütün sahələrdə ağır və məşəqqətli vəziyyət hökm sürürdü: "Həmin dövr insanların çörəklə imtahana çəkildiyi dövr idi.***

Belə böhranlı durumda xalq üzünü dahi oğlu Heydər Əliyevə tutdu. İsrarlı tələblərlə Onu Bakıya dəvət etdilər. Ulu Öndər Heydər Əliyev xalqın düşdüyü ağır vəziyyətə biganə qalmadı. Çağırışa səs verərək, Bakıya gəldi. 1993-cü il iyulun 15-də Dahi Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi tariximizə 15 İyul Milli Qurtuluş Günü kimi həkk olundu. 1993-cü il oktyabrın 3-də Azərbaycanda azad və demokratik şəkildə prezident seçkiləri keçirildi və xalqımızın irəli sürdüyü namizəd - Ulu Öndərimiz Heydər Əliyev Prezident seçildi ".

Millət vəkili o ağır 1992 - 1993-cü illərin canlı şahidi olduğunu və o məşəqqətli illərdən Ulu Öndərimizin düzgün, müdrik siyasəti sayəsində bugünkü, gözəl və işıqlı günə gəldiklərini bildirdi: "Tarix üçün 20-25 il uzun dövr deyil. Bu illərdə əldə etdiyimiz nailiyyətləri tərəzinin bir gözünə, o illərdəki problemlərimizi tərəzinin o biri gözünə qoysaq, o problemlərimiz daha ağır gələr. Bax o ağır problemləri, o ağır çəkini bugünkü nailiyyətlərimiz geridə qoydu. Ölkəmizdə sovet dövründən 5 minə qədər bərbad vəziyyətdə olan məktəbəqədər təhsil ocaqları, orta və ali təhsil müəssisələri miras qalmışdı. Tibb müəssisələri, mədəniyyət ocaqları, infrastruktur, yol, iqtisadiyyat, kənd təsərrüfatı, bir sözlə, hər şey dağıdılmışdır. Ötən əsrin 90-cı illərində səriştəsiz və hərəsi özünü bir lider, dövlət başçısı elan etmiş o qüvvələr, bugünkü Azərbaycan hökumətinə qara yaxma ilə məşğul olan bir ovuc insanlar Azərbaycanı elə bir duruma gətirib çatdırmışdılar ki, rayonlarda telefon naqilləri və qaz kəməri xətləri belə kəsilib satılmışdı. Onlar xalq cəbhəsi adını elə qoymuşdular ki, guya bütün xalq elə onların cəbhəsindədir. Elə deyildi. Xalq hərəkatını özününküləşdirmək gülünc olardı. Çünki o vaxt insanları birləşdirən, sovet rejiminə qarşı, Qarabağı işğal edən qüvvələrə qarşı etiraz idi. Keçmiş TV kadrlarına da baxanda, görürük ki, xalq əlində Ulu Öndər Heydər Əliyevin portreti ilə nümayişlərə və mitinqlərə çıxırlar. Çünki Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevi lideri, dövlət adamı və dövlətin xilaskarı kimi görürdü".



M.İbrahimqızı onu da bildirir ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra sosial-iqtisadi inkişafa, tərəqqiyə və siyasi sabitliyə nail olundu: "1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqda, "Bakı-Tbilisi-Ceyhan" sözü 3 dənizin əfsanəsi adlandırıldı. Belə bir bədii obraz qoyulmuşdu. Hətta bəzi müxalifət qüvvələri, eləcə də, xaricdən ermənipərəst qüvvələr, Azərbaycanın gələcəyini sevməyən qüvvələr də Ulu Öndər Heydər Əliyevin, bu mənada, layihələrini utopik layihələr adlandırırdır və gerçəkləşdirəcəyinə əmin olmadıqlarını yazırdılar. Amma "3 dəniz" əfsanəsi reallaşdı. Bütün bunlar Ulu Öndərin əzmkarlığı, qətiyyəti, gücü və xalqına olan bağlılığının nəticəsi idi. Ulu Öndər Heydər Əliyevi fiziki cəhətdən aramızdan götürməyə cəhd edən qüvvələr, dəfələrlə sui-qəsdlər hazırladılar. Amma Dahi Öndər Heydər Əliyevin qətiyyəti, əzmkarlığı, o zəngin dövlətçilik təcrübəsi, uzaqgörənliyi və nüfuzu, şəxsiyyəti o qüvvələrə qalib gəldi. Bir də Onun qələbəsini şərtləndirən bir amil var idi ki, o da Heydər Əliyevin xalqa güvənməsi və xalqa arxalanması idi. Ona görə də, bugünkü gün əlamətdar bir gün olaraq, tarixə dönüş nöqtəsi kimi düşdü.

Bu mənada, biz 1993-cü il 3 oktyabr gününü çox yüksək dəyərləndirməliyik, unutmamalıyıq, təbliğ etməliyik, tədris etməliyik, eyni zamanda, minnətdarlıqla hər zaman Ulu Öndərimizin ruhu qarşısında öz ehtiramımızı bildirməliyik".

***İNAM***



## Xədicənin mükafatalma "sirri" - o, nə satır və nə alır?

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Özünü daxili və xarici ictimai rəydə gah "araşdırmaçı jurnalist", gah "hüquq müdafiəçisi", gah da digər özünə sərf edən sahələrin təmsilçisi kimi təqdim etməyə cəhd edən Xədicə İsmayılın, xarici ölkələrdə əlaqəli qurumlardan mükafatlar alması sosial şəbəkələrdə də ciddi müzakirə obyektinə çevrilib. "Mükafat" adı altında verilən vəsaitin, əslində, qrant olduğu bəlli olub. Daha dəqiq desək, Azərbaycan əleyhinə fəaliyyət göstərən bir sıra ermənipərəst qurum və təşkilatlar, yaxşı bilirlər ki, qanunvericiliyimiz xarici fondların yerli təşkilatlara qrant ayırmasına icazə vermir. Bu qanunu pozmaq isə cinayət məsuliyyətidir. Ona görə də X.İsmayılın aldığı sonuncu pul vəsaitini ona "mükafat" adı ilə veriblər, halbuki bu, əslində, qrantdır.***

### "Mükafat" adı altında real qrant

Azərbaycan hökumətinin, xüsusilə, son illər qrant layihələri ilə bağlı qanunlara diqqət etməsi müəyyən anti-Azərbaycan xarici siyasi-ictimai dairələri qrant pullarını "mükafat" şəklində göndərməyə vadar edib. Bu isə, həm də belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, Xədicənin son günlər aldığı "Right-Livelihood-Award" , yeni "Dürüst Həyat Mükafatı" (?!-R.) və "Allard" mükafatı, əslində, bilavasitə qrant layihələridir!

O cümlədən, "Fritt Ord" Fondunun Azərbaycan adına "Meydan TV" -yə verdiyi mükafat da, əslində, qrant layihəsidir. Bu qrant layihəsinin həmin xəyanətkar media qurumuna verilməsi də, məhz X.İsmayılın canfəşanlığı ilə baş tutub.

Ümumiyyətlə, belə "mükafatların" verilməsi, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, X.İsmayıl qrantı mükafat adı ilə almaqla, vergi borcunu dövlətdən gizlədir.

### Xədicə İsmayıl - Əli Kərimli savaşında yeni dönəm...

Yeri gəlmişkən, X.İsmayılın digər cəhəti də qanunsuz qrantları əldə etməsindən sonra onları digər müxalifət təmsilçilərinə verilməməsi istiqamətində atdığı qəribə addımlarıdır. Misal üçün, X.İsmayıl AXCP sədri Əli Kərimlinin də həmin layihələrdən kənarda qalması üçün var gücü ilə çalışır. Buna səbəb isə "siyasi məhbus" siyahısının hazırlanmasında onların bir-birilərinin "bazarlarına" girməsi faktıdır. Hətta bir müddət bundan öncə, tərəflər arasında kəskin qarşıdurma da yaranmışdı. Məhz bu baxımdan, son zamanlar Ə.Kərimlinin tərəfdarları ilə X.İsmayılın tərəfdarları arasında kəskin qarşıdurmalara yenidən rəvac verilib.

Ümumiyyətlə, qrant adı altında verilən "mükafatların" sonda uğurlu nəticə verməyəcəyini bəri başdan demək mümkündür. Çünki X.İsmayıla "dürüst" adam olması adı ilə verilən məlim qrant onu tanıyan adamların təəccübünə səbəb olub. Dövlət maraqlarını, milli-mənəvi dəyərləri erməni lobbisinin göstərişləri əsasında fəaliyyət göstərən xarici təşkilatlara satan Xədicənin "dürüst" kimi qələmə verilməsi məntiqə sığmayan bir reallıqdır. Əlbəttə, özünü satandan bundan başqa hər hansı bir müsbət cəhəti gözləməyə də dəyməz...

## "Dünənimizin, bu günümüzün və gələcəyimizin partiyası - Yeni Azərbaycan Partiyası"

*Bu mövzuda YAP Şəmkir rayon təşkilatı tədbir keçirib*




***Dünən YAP Şəmkir rayon təşkilatı partiyanın 25-ci ildönümü münasibəti ilə Şəmkir SES ilk partiya təşkilatında "Dünənimizin, bu günümüzün və gələcəyimizin partiyası -Yeni Azərbaycan Partiyası " adlı tədbir keçirib.***



Tədbiri giriş sözü ilə Şəmkir SES Silsiləsinin rəisi, YAP Şəmkir rayon şurasının üzvü Misir Yusifov açaraq, partiyanın yaranma tarixi, inkişaf mərhələləri, ölkənin ictimai-siyasi həyatındakı müstəsna rolu barədə geniş məlumat verib: "Ciddi sınaqlardan çıxmış YAP 25 il ərzində təşəkkül tapıb, inkişaf edib, möhkəmlənib, ildən-ilə öz sıralarını genişləndirərək, xalqın partiyasına çevrilib. YAP-ın yaranması, keçdiyi zəngin və şərəfli tarixə nəzər salan M.Yusifov bildirib ki, YAP 25 il ərzində çətin və şərəfli yollardan keçərək, bu gün Azərbaycanın ən güclü partiyası kimi formalaşıb. YAP ölkədə keçirilən bütün siyasi kampaniyalarda qələbə qazanır. Ümummilli Lider Heydər Əliyevin 25 il öncə, uzaqgörənliklə qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".

Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev partiyanın Azərbaycan dövlətçiliyinin inkişafında oynadığı rol barədə danışıb. Bildirib ki, YAP-ın yaranmasından 25 il ötsə də, bu müddət ərzində, partiyamız çox zəngin yol keçib: "YAP müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində yeganə iqtidar partiyası olduğunu əməli və səmərəli fəaliyyəti ilə sübuta yetirib. Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti sayəsində partiyanın ölkənin ictimai-siyasi həyatında nüfuzu daha da artmış, cəmiyyət içərisində onun rolu yüksəlmiş və avanqard dəstəyə çevrilmişdir".

Daha sonra çıxış edən YAP Şəmkir rayon təşkilatı Şəmkir SES ilk partiya təşkilatının sədri Ziyəddin Cəlilov partiyanın gəncliyin inkişafı üçün uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdıraraq, YAP-ın sıralarında gənclərin kifayət qədər yüksək təmsil olunduqlarını vurğulayıb. Ulu Öndər Heydər Əliyevin hər zaman gənclərə xüsusi diqqət və qayğı ilə yanaşdığını və bu siyasətin YAP Sədri, ölkə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Sonda digər çıxış edənlər partiyanın 25 illik şərəfli və zəngin yol keçdiyini, Ümummilli Lider Heydər Əliyevin və Onun layiqli davamçısı, partiyanın Sədri, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlərə nail olunduğunu bildiriblər.

**RƏFİQƏ**



***Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə bağlı YAP Tərtər rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında silsilə tədbirlərin keçirilməsi davam etdirilir. Rayon təşkilatından qəzetimizə verilən məlumata görə, növbəti tədbirlər Seydimli və Buruc ərazi ilk partiya təşkilatlarında keçirilib.***

## Yeni Azərbaycan Partiyası ilə yeni qələbələrə və davamlı zəfərlərə doğru

*Dövlətini və Vətənini sevən hər bir Azərbaycan vətəndaşı YAP ətrafında daha da sıx birləşib, ölkəmizin bu günü və gələcəyi üçün var gücləri ilə fəaliyyət göstərirlər*



Seydimli ərazi ilk partiya təşkilatında təşkilatın sədri Hicran Hüseynova, partiya veteranı Sayəddin Musayev, Seydimli kənd tam orta məktəbinin direktoru Nurəddin İbrahimov, partiya üzvü Nəsibə Əliyeva və rayon təşkilatının şura üzvü Kamil Məmmədov, Buruc ərazi ilk partiya təşkilatında isə ilk təşkilatın sədri Niyaməddin Aslanov, partiya üzvlərindən Ziyafət Almasova, Nüşabə Misirova, rayon təşkilatının şura üzvü Ramil Bayramov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yoldan, partiyanın hakim siyasi təşkilat kimi fəaliyyəti dövründə Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, sosial-iqtisadi, siyasi və mədəni həyatımızda əldə olunan misilsiz uğurlu nəticələrin bu gün partiyanın Sədri, Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində yeni-yeni uğurlara yol açmasından danışıblar.

Çıxışlarda belə bir fikir vurğulandı ki, məhz 1993-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası hakim partiya adını qazandıqdan sonra dövlətimiz və xalqımız müstəqilliyin, azadlığın nə olduğunu dərk etdi. Məhz bu baxımdan, dövlətini Vətənini sevən hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının ətrafında daha da sıx birləşib, ölkəmizin bu günü və gələcəyi üçün var gücləri ilə fəaliyyət göstərirlər. Çünki onlar etibarlı zəminin yaradıldığını bilir və bu amili yüksək qiymətləndirirlər.

Tədbirlərdə çıxış edənlər Yeni Azərbaycan Partiyasının hər bir üzvünün təşkilatın yüksək amalları uğrunda daim mübarizliklərini artıracaqlarına söz verdilər.

**R. HÜSEYNOVA**

## YAP Naftalan şəhər təşkilatı partiyanın yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirib

***Dünən YAP Naftalan şəhər təşkilatının Naftalan şəhər Kurort Birliyi ərazi ilk partiya təşkilatında partiyanın yaradılmasının 25-ci ildönümü münasibəti ilə "Dünənimizin, bu günümüzün və gələcəyimizin partiyası - Yeni Azərbaycan Partiyası" adlı tədbir keçirilib. Tədbirdə YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev və ilk partiya təşkilatının üzvləri iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev partiyanın yaranma tarixi və Azərbaycan dövlətçiliyinin inkişafında oynadığı roldan danışıb. H.Qocayev vurğulayıb ki, YAP-ın yaranmasından 25 il keçməsinə baxmayaraq, bu qısa müddət ərzində, partiyamız çox zəngin tarixi yol keçib. Şəhər təşkilatının sədri ötən 25 il ərzində ölkəmizdə baş verən yüksəliş və yeniləşmədə, uğurlu layihələrin həyata keçirilməsində aparıcı, vahid, qüdrətli, mütəşəkkil siyasi qüvvə kimi iştirak etdiyini, müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində yeganə iqtidar partiyası olduğunu əməli və səmərəli fəaliyyəti ilə sübuta yetirdiyini bildirib: "Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti sayəsində partiyanın ölkənin ictimai-siyasi həyatında nüfuzu daha da artmış, ictimai nüfuza malik olaraq, avanqard və qüdrətli dəstəyə çevrilmişdir".

Sonda YAP Naftalan şəhər təşkilatının sədri H.Qocayev bir daha Yeni Azərbaycan Partiyasının yaranmasının 25-ci ildönümü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, O bildirib ki, xoşbəxt gələcəyimizin və qələbələrimizin təminatçısı yalnız Azərbaycan Respublikasının Prezidenti, YAP Sədri Cənab İlham Əliyevdir. Həqiqətən, bu gün Cənab Prezidentimizin məqsədyönlü siyasəti nəticəsində respublikamız qüdrətlənir, qüdrətlənəcək və güclü Azərbaycana çevriləcək.

**ZÜMRÜD**

## Nizami Cəfərov: "İslam həmrəyliyi sülh və inkişaf çağırışıdır"



"Azərbaycanda dini etiqad azadlığı tam təmin olunub". Bu fikri Milli Məclisin deputatı, akademik Nizami Cəfərov deyib. N.Cəfərov bildirib ki, bu məsələni "Dini etiqad azadlığı haqqında" qanun tənzimləyir. Onun sözlərinə görə, dini fəaliyyətə dair vahid dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığının təmin olunması üçün müvafiq şəraitin yaradılması, dövlət-din münasibətlərinin tənzimlənməsi və digər məqamlar qeyd olunan qanunvericiliyin tərkib hissəsidir. "Eyni zamanda, Azərbaycan İslam həmrəyliyinin təmin olunması üçün mühüm təşəbbüslərlə çıxış edir. İslam həmrəyliyi sülh və inkişaf çağırışıdır. Hazırda bütün dünya ictimaiyyəti bu təşəbbüsün ortaya çıxardığı birlik və həmrəyliyə ehtiyac duyur. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması və bu çərçivədə görülən işlər müsəlman xalqları arasında möhkəm əlaqələrin qurulmasına təsir göstərmək imkanında olan sülh və qardaşlıq çağırışıdır"- deyə, akademik vurğulayıb.

səs
www.sesqazeti.az
facebook
Ses Media Holding
4 oktyabr 2017-ci il

# Strateji Yol Xəritəsinin yarımillik monitorinq və qiymətləndirmə hesabatı

***Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin yarımillik monitoriq və qiymətləndirilməsini əks etdirən rəqəmlər ictimailəşdirilib. Təqdim edilən sxemdə bütün sahələr üzrə ümumi nəticə və hədəflər əks etdirilib və ayrı-ayrılıqda göstərilən rəqəmlərdən də aydın olur ki, hesabatın nəticələri özündə bir sıra uğurları ehtiva etməkdədir.***



Belə ki, 2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin 32 faizinin icrası tamamlanıb, 59 faizinin icrası üzrə işlərə başlanılıb. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi məqsədilə, büdcə qaydalarının parametrləri beynəlxalq təcrübə nəzərə alınmaqla, müəyyənləşdirilib və razılaşdırılıb, büdcə qaydalarının tətbiq olunacağı təqdirdə, dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilib, o cümlədən, proqnoz göstəriciləri hazırlanıb. Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabatlar nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanıb. Makroiqtisadi koordinasiya təmin edilib, məzənnə rejiminin çevikliyi artırılıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı" və "Ortamüddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin restrukturizasiyası həyata keçirilməklə, onların tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin siyahısı" təsdiq edilib. 2017-ci ilin ilk yarımili ərzində kiçik dövlət müəssisə və obyektlərinin, qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi ilə bağlı hazırlanmış 39 sərəncama əsasən, 442 müəssisə və obyektin özəlləşdirilməsi ilə əlaqədar qərar qəbul edilib. 2017-ci il ərzində hərracı baş tutub, 395 kiçik dövlət müəssisə və obyektinin 221-i icarəyə verilib, 246 qeyri-yaşayış sahəsinin 89-u, ümumilikdə isə, 310 müəssisə və obyekt satılıb. "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası", "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində Korporativ İdarəetmə Qaydaları və Standartları" və "Dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvlərinə onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə ("Performance Based Remuneration System") bonus ödənişlərinin verilməsi qaydası" barədə qərar layihələri hazırlanaraq, aidiyyəti üzrə təqdim edilib. "Daşkəsən Filizsaflaşdırma" ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi prosesinə məsləhətçi şirkət cəlb edilib. Müəssisənin özəlləşdirilməsinə maraq göstərən yerli və xarici şirkətlərlə danışıqlar aparılmış, müəssisə ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb və zəruri məlumatlar verilib. Özəlləşdirmə prosesinə yerli və xarici investorların cəlb edilməsi məqsədilə potensial investorlara dair mövcud məlumat bazası genişləndirilib, bu şirkətlərin fəaliyyət profili, rəhbər şəxsləri, rekvizitləri və bir sıra digər məlumatlar dəqiqləşdirilib və yeni məlumatlar əlavə olunub. Özəlləşdirmə prosesinə investorların daha fəal cəlb edilməsi sahəsində əməkdaşlıqla bağlı Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə əməkdaşlıq haqqında memorandumun imzalanması təmin edilib, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə yaxın əməkdaşlıq qurulub, yerli və xarici biznes forumlarda özəlləşdirmə layihələri təqdim edilib. Ölkədə insan kapitalının inkişafı məqsədilə təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi istiqamətində görülən tədbirlər çərçivəsində məktəbə hazırlıq qrupları təşkil edilib, təhsilalanlar və müəllimlər üçün tədris vəsaitləri hazırlanıb, müəllim və rəhbər heyət üçün ixtisasartırma imkanları təmin edilib. Ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək səriştələrə yiyələnmək imkanı yaratmaq məqsədilə ötən tədris ilində tam orta təhsil səviyyəsində təmayüllər üzrə təhsilin əhatə dairəsi genişləndirilib. Bundan əlavə, təhsil müəssisələrinin fiziki və texnoloji infrastrukturunun təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülüb. İlk peşə-ixtisas təhsili müəssisələrində mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Təhsil Nazirliyinin tabeliyində olan 109 peşə təhsili müəssisəsinin (cəzaçəkmə müəssisələrində yerləşən və fəaliyyəti dayandırılan 14 müəssisəni çıxmaqla) 90 faizinə, yeni 86 müəssisəyə baxış keçirilib, Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsilinin dövlət standartları layihəsi, eləcə də, əmək bazarının tələblərinə uyğun orta ixtisas təhsili pilləsinin yeni dövlət standartlarının layihəsi hazırlanıb. 2016-cı il və 2017-ci ilin birinci yarımili ərzində 158 sahibkarlıq subyektinə (141 hüquqi şəxs, 17 fərdi sahibkar) 169 investisiya təşviqi sənədi təqdim olunub. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı komissiyanın müvafiq işçi qrupu tərəfindən Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanaraq, komissiyaya təqdim edilib. Bundan əlavə, komissiya tərəfindən müəyyən edilmiş iqtisadi və biznes profilli 5 beynəlxalq reytinqdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində yaradılan işçi qruplarla mütəmadi görüşlər keçirilib, təklif və layihələr müəyyənləşdirilərək, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib.

Eyni zamanda, "Doing Business" hesabatına daxil olan 8 indikator üzrə qanunvericiliyə dəyişikliklər edilib, reytinqdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb. Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən, dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi istiqamətində işlər görülüb. "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın layihəsi, "Standartlaşdırma haqqında" yeni qanun layihəsi, eləcə də, istehlak bazarında qeyri-qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı normativ-hüquqi akt layihələri hazırlanaraq aidiyyəti qurumlara göndərilib.

Əsas problemlər: 1. Xarici investisiyaların cəlbi istiqamətində kifayət qədər sistemli iş aparılmayıb. Belə ki, mövcud iqtisadi şərtlər çərçivəsində qanunvericiliyin təhlil edilməsi və xarici investorların maraqlarının daha yaxşı nəzərə alınması ilə bağlı dəyişikliklərin layihəsi hazırlanmayıb. 2. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı bir sıra qanunvericilik layihələrinə dəyişiklik edilsə də, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nda (bundan sonra - Tədbirlər Planı-red.) nəzərdə tutulmuş bütün istiqamətlər üzrə islahat tədbirləri başa çatdırılmayıb.

Tövsiyələr: 1. İnvestisiya məsələləri ilə bağlı ətraflı təhlillər aparıla, dövlət-özəl tərəfdaşlığının daha da inkişaf etdirilməsi, infrastruktur sahələrinin inkişafına özəl sərmayənin cəlbinin stimullaşdırılması istiqamətində Strateji Yol Xəritəsinin tədbirlərinə uyğun olaraq, işlər sürətləndirilə bilər. 2. Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin icrası istiqamətində işlər sürətləndirilə bilər. 3. Rəqabət Məcəlləsinin qəbul edilməsi və institusional islahatların aparılması istiqamətində işlər sürətləndirilə bilər.

**Rövşən NURƏDDİNOĞLU**

## Suraxanıda "Beynəlxalq Ahıllar Günü" münasibəti ilə tədbir keçirilib

***Dünən Suraxanı rayon icra hakimiyyətinin və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Suraxanı rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Beynəlxalq Ahıllar Günü" münasibəti ilə tədbir keçirilib.***

Rayonda yaşayan ahıl insanlar üçün "Halal süfrə" şadlıq evində təşkil edilmiş mərasimdə çıxış edən rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Hacıyev qeyd edib ki, BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul etmişdir və həmin qətnamənin prinsiplərinə uyğun olaraq, hər il oktyabr ayının 1-i bütün dünyada Beynəlxalq



Ahıllar Günü kimi qeyd olunur. Hər il "Beynəlxalq Ahıllar Günü", ölkəmizin hər yerində olduğu kimi, Suraxanı rayonunda da yüksək səviyyədə qeyd olunur.

O, bildirib ki, ölkəmizdə ahıllarla bağlı dövlət siyasəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ahıl insanların sosial müdafiəsinin təmin olunmasına göstərdiyi xüsusi diqqət və qayğı əsasında formalaşıb. Dövlətimizin başçısı möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin müvafiq fərman və sərəncamlarına, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə qəbul edilmiş Dövlət Proqramına və digər sənədlərə əsasən, ahılların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Arzərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva ahılların ən böyük qayğıkeşidir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ahıllarla, müharibə veteranları ilə görüşlər keçirilir, onların sağlamlığı diqqətdə saxlanılır. Ahıllar günündə bu qəbildən olan insanlar üçün müxtəlif tədbirlər təşkil olunur.

Bildirilib ki, ölkəmizdə son illər vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sosial-müdafiə sisteminin, o cümlədən, ahılların sosial müdafiəsinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində davamlı işlər görülür.

Hazırda rayonda 187 kimsəsiz ahıl insan yaşayır. Onlardan 146 nəfəri qadın, 41 nəfəri isə kişidir. Bu insanlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Suraxanı rayon şöbəsi tərəfindən qeydiyyata alınmış, onlara xidmət olunur və həyat tərzinə nəzarət edilir.

Ahıl insanların asudə vaxtlarını səmərəli keçirməsi üçün rayonda səkkiz "Veteranlar guşə"si tikilib istifadəyə verilib. Yaşlı nəslin problemlərinin həlli rayon icra hakimiyyətinin diqqət mərkəzində saxlanılır. Problemlərin həllinə rayonda fəaliyyət göstərən ictimai birlik və cəmiyyətlər cəlb olunurlar. Azərbaycan "Qızıl Aypara" Cəmiyyətinin rayon bölməsi, rayon Veteranlar Şurası və rayon Ağsaqqallar Şurası fəallıqları ilə fərqlənirlər.

Daha sonra tədbirdə Dövlət Sosial Müdafiə Fondunun Suraxanı rayon şöbəsinin müdiri Şahalı Cəbiyev, Suraxanı rayon Ağsaqqallar Şurasının üzvü Mirzəağa Quliyev, Böyük Vətən müharibəsi iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri və ahıllar çıxış ediblər.

Çıxış edənlər bu zümrədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi və hüquqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər barədə danışıblar, diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

**ZÜMRÜD**

# Azərbaycan xalqı heç də Avropa təşkilatlarının tələblərini qəbul etmək məcburiyyətində deyil!



## Yaxud Avropa "ağıllıları" ölkəmizdə ağır xəstəliklər yaradacaq və genofondumuza zərbə vuracaq hallara qarşı aparılan mübarizəyə necə kölgə salmağa çalışırlar?

***Son zamanlar bir sıra Avropa və bütövlükdə, Qərb təşkilatlarının, eləcə də, media qurumlarının Azərbaycana qarşı apardıqları qərəzli kampaniyaların tərkibinə daha biri də əlavə olunub. Daha dəqiq desək, hər zaman özlərini "insan haqlarının çılğın mübarizləri" kimi qələmə verən məlum dairələr və Avropa KİV-ləri ölkəmizlə bağlı yürüdülən ikili standartlardan çıxış etmələri ilə yanaşı, indi də cinsi azlıqların "diskriminasiyaya" uğradıqlarını iddia edirlər.***

Bəri başdan, onu da qeyd etməliyik ki, Azərbaycanın milli-mənəvi dəyərləri, xalqımızın ictimai baxışı tarixlər boyu bu cür rüsvayçı halı qəbul etməməklə yanaşı, eyni zamanda, həmin hallara qarşı neqativ mövqe sərgilənib. Bu isə anlaşılandır və cinsi azlıqlara qarşı mənfi münasibət yalnız Azərbaycanda deyil, bütövlükdə, Qafqaz xalqları arasında qəbul edilməyən tendensiyalar sırasında yer almaqdadır. Əgər avropalılar bu amili əllərində bayraq edərək, Azərbaycana qarşı "silah" kimi istifadə etməyə cəhdlər göstərirlərsə, kökündən yanılırlar. Çünki Azərbaycan xalqı heç də Avropanın qəbul edilməyən maraqlarını qəbul etməyə məcbur deyillər və olmayacaqlar da!

### Avropa və Qərb dairələrinin ölkəmizdə keçirilən qanunamüvafiq reydlərin əleyhinə çıxışları məqsədlidir və birbaşa Azərbaycanın ictimai-siyasi maraqlarına qarşı istiqamətlənib

Gəlin görək, Qərb və Avropa mediası son vaxtlar ölkəmizdə ağır xəstəliklər yaradacaq və genofondumuza zərbə vuracaq hallara qarşı aparılan qanun çərçivəsindəki mübarizəyə necə kölgə salmağa çalışırlar. Misal üçün, "The Independent" yazır ki, "insan haqları qrupları Azərbaycan hökumətini həbs olunduğu söylənən onlarca cinsi azlıq nümayəndəsinin azadlığa buraxılmasını tələb ediblər".

Yaxud homoseksualların hüquqlarını müdafiə edən beynəlxalq "ILGA" təşkilatı bildirir ki, "xəbərləri yayılan reydlərin tam miqyasını müəyyənləşdirmək mümkün deyil, lakin Azərbaycan "LGBT" şəxslərin təqib olunduğu yer kimi tanınır.

"ILGA" təşkilatının Avropa üzrə icraçı direktoru Evelyne Paradis bəyan edib ki, "LGBT" İcması nümayəndəsi olduğu düşünülən şəxslərin hədəflənməsinə heç cür haqq qazandıra bilməz" (?!-R.N.).

Göründüyü kimi, ortaya çıxanlar Avropa və Qərb dairələrinin ölkəmizdə keçirilən qanunamüvafiq reydlərin əleyhinə çıxışları məqsədlidir və birbaşa Azərbaycanın ictimai-siyasi maraqlarına qarşı istiqamətlənib. Ancaq gəlin görək, hüquq-mühafizə qurumları həqiqətənmi qeyri-qanuni hərəkətlərə yol veriblər?

### Yoluxucu, hətta sağalmaz xəstəliklərə səbəb olan homoseksuallıq, lezbiyanlıq faktorlarının qarşısının alınması, əslində, daha da aktuallaşdırılmalıdır

Bunun üçün heç də uzağa getməyərək, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin media üçün açıqladığı rəsmi məlumatını oxumaq kifayətdir. Həmin məlumatda bildirilir ki, məhz vətəndaşların çoxsaylı müraciətləri əsasında Bakı şəhərinin mərkəzi hissəsində axşam saatlarında qrup şəklində yerli vətəndaşlara və əcnəbi turistlərə pul müqabilində intim xidmətlər təklif edən, hətta imtina edənləri təhqir edib, münaqişəyə çəkməklə ictimai qaydanı pozan şəxslərin müəyyənləşdirilməsi, onların dəri-zöhrəvi xəstəliklərin daşıyıcısı olub-olmamasının yoxlanılması və digər profilaktiki tədbirlərin görülməsi məqsədilə şəhərin Baş Polis İdarəsi və ərazi polis orqanlarının əməkdaşları tərəfindən sentyabrın 15-dən 30-dək həyata keçirilmiş tədbirlərdə 83 nəfər saxlanılmışdır.

Bu rəsmi məlumatdan həm də belə bir nəticəyə gəlmək olar ki, bilavasitə "AİDS" ("QİÇS"), və s. yoluxucu, hətta sağalmaz xəstəliklərə səbəb olan homoseksuallıq, lezbiyanlıq faktorlarının qarşısının alınması, əslində, daha da aktuallaşdırılmalıdır və bunu bilavasitə vətəndaşlar tələb edirlər. Çünki yuxarıda da qeyd edildiyi kimi, ortada Azərbaycanın tarixlərə söykənən və heç vaxt dəyişilməyəcək milli-mənəvi dəyərləri mövcuddur.

### Əxlaq pozuntularına yol verilməməsi baxımından da vətəndaşlar hüquq-mühafizə orqanlarına üz tutub, şikayət ediblər

Nə dini, nə də mənəvi-əxlaqi baxımından qəbul edilməyən bu çirkinliklərin qarşısının alınması həm də milli genofondumuzun qorunmasına yönəlmiş əhəmiyyətli addım olaraq qiymətləndirilməlidir. Eyni zamanda, övladlarının milli dəyərlərimizə söykənən üslubda təlim-tərbiyəsi, əxlaq pozuntularına yol verilməməsi baxımından da, vətəndaşlar hüquq-mühafizə orqanlarına üz tutub, şikayət ediblər. Digər tərəfdən, cinsi azlıqlar yalnız mənəviyyatı kirləndirməklə deyil, törətdikləri cinayət əməlləri ilə də bağlı, necə deyərlər, "ad çıxarıblar". DİN-in rəsmi məlumatında bildirilir ki, həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 510 (Xırda xuliqanlıq) və 535.1-ci (Polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) maddələri ilə protokollar tərtib edilərək, məhkəmələrə göndərilib, 56 şəxs barəsində müxtəlif müddətlərə inzibati həbs tənbehi seçilib, 18 nəfərə inzibati qaydada cərimə, 9 nəfərə xəbərdarlıq edilib.

Yeri gəlmişkən, əgər bu gün avropalı "LGBT" təşkilatları baş verənlərdən bu qədər narahat olublarsa, onlar da DİN-in rəsmi məlumatına nəzər sala bilərlər. Çünki sözügedən rəsmi məlumatda o da qeyd olunur ki, saxlanılan şəxslərin hüquqlarını müdafiə edən vəkillərin müraciətləri nəzərə alınaraq, inzibati həbs olunanlardan 32 nəfəri müalicə üçün dəri-zöhrəvi dispanserlərə göndərilib, zöhrəvi xəstəlik aşkar edilməmiş 24 nəfər isə inzibati həbsdən azad olunublar.

Lakin ciddi siqnallar da göz önündədir. Daxili İşlər Nazirliyinin saytında yerləşdirilən məlumatda vurğulanır ki, tibbi-laborator müayinələrin hazırkı nəticəsinə görə 32 nəfərdə müxtəlif zöhrəvi xəstəliklər, o cümlədən, 6-sında "AİDS", 6-da "HİV", 16-da "sifilis", 2-də "kəskin uretrit, candida albikas və trixomonias", 2 nəfərdə isə "Hepatit HVC" virusu aşkarlanıb, digərlərində zöhrəvi xəstəliklərin olub-olmamasının müəyyənləşdirilməsi, eləcə də, onlar tərəfindən bu xəstəliklərin məqsədli şəkildə yayılmasının qarşısının alınması istiqamətində səhiyyə orqanları ilə birgə təxirəsalınmaz tədbirlər davam etdirilir.

### Yaxşı olardı ki, avropalılar öz daxillərində baş verən dini, irqi və s. zəminlərdə baş alıb gedən diskriminasiyaların qarşısını almaqdan ötrü "ağıllarını" işə salsınlar

Məgər görülən tədbirlər yersizdirmi? Yaxud bu gün Qərb və Avropa mediasının "ağıllıları" bu qədər insan haqlarının müdafiəçilərinə çevriliblərsə, nəyə görə aşkar edilən və adlarından belə vahiməli görünən xəstəliklər barədə heç nə demirlər? Yaxud onlar, həqiqətən də, bu qədər insan haqlarının müdafiəçiləridirlərsə, nəyə görə narahat olurlar? Axı ən azından, digər insanları yoluxdura biləcək bu qədər potensial xəstəlik daşıyıcıları müəyyən edilib!

Bu baxımdan, sözügedən məsələləri araşdırdıqca, nəticəyə gəlmək olar ki, ayrı-ayrı yerli və xarici kütləvi informasiya vasitələrində cinsi azlıqlara qarşı guya təqiblərin olması və onların hüquqlarının pozulması barədə deyilənlər özündə heç bir həqiqəti əks etdirmir. Çünki bənzər tədbirlərin keçirilməsində məqsəd yalnız ictimai qaydanı pozmaqla vətəndaşların şikayətlərinə səbəb olan şəxslərin müəyyənləşdirilərək, məsuliyyətə cəlb edilməsi və ağır nəticələrə səbəb olan yoluxucu zöhrəvi xəstəliklərin yayılmasının qarşısının alınmasıdır.

Sonda isə, daha bir amilə toxunmaq istərdik. Məsələ ondadır ki, Azərbaycan cinsi azlıqların hüquqlarının müdafiəsi ilə bağlı heç bir beynəlxalq konvensiyalara qoşulmayıb və bunun da səbəbləri yuxarıda qeyd olunub. Bu baxımdan, avropalı "LGBT" "ağıllıları" hesab etməsinlər ki, onların maraqları ölkəmizdə tətbiq edilə bilər. O cümlədən, Azərbaycan xalqı heç də Avropa təşkilatlarının hər dediyi tələbləri, xüsusilə, mövcud məsələni qəbul etmək məcburiyyəti daşımır. Yaxşı olardı ki, avropalılar öz daxillərində baş verən dini, irqi və s. zəminlərdə baş alıb gedən diskriminasiyaların qarşısını almaqdan ötrü "ağıllarını" işə salsınlar.

***Rövşən NURƏDDİNOĞLU***

# Turbyern Yaqland AŞPA-nın baş katibliyindən uzaqlaşdırılmalıdır

*Azərbaycan ictimaiyyəti Yaqlandın baş katiblikdən uzaqlaşdırılması üçün avropalı depudatlara müraciətlər ünvanlayırlar*



**Avropa Şurasının baş katibi Turbyern Yaqlandın Azərbaycan Məhkəməsinin qərarına əsasən, məhkum olunmuş "REAL" təşkilatının rəhbəri İlqar Məmmədovun azadlığa buraxılmadığına görə, Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə çağırması Azərbaycan cəmiyyətində hiddət və qəzəbə səbəb olub. İctimaiyyətin bütün təbəqələri AŞPA-nın baş katibini ölkəmizə qarşı qərəzçilikdə günahlandırır və onun baş katiblikdən uzaqlaşdırılması üçün avropalı deputatlara müraciətlər ünvanlayırlar. Söhbət etdiyimiz müsahiblərimiz də AŞPA-nın baş katibinin Azərbaycanla bağlı açıqlamasını onun məsuliyyətsizliyi və özbaşınalığı kimi qiymətləndirdilər.**

***Millət vəkili Azər Badamov:***



- Avropa Məhkəməsində icra olunmamış 10 minlərlə qətnamə və qərarlar mövcuddur. Amma Avropa Şurası buna heç bir şey olmamış kimi yanaşır və qəti münasibət bildirmir. Lakin Azərbaycana qarşı münasibətdə ayrı yanaşmanı ortaya qoyurlar. Yəni "REAL" Hərəkatının sədri İlqar Məmmədovun tezliklə azadlığa buraxılmasını tələb edirlər və Avropa Məhkəməsinin bu barədə qəbul etdiyi qərarın icra edilmədiyinə görə, Azərbaycanı Avropa Şurasının üzvlüyündən çıxarılacağı ilə hədələyirlər. Düşünürəm ki, belə münasibət, başda Avropa Şurasının baş katibi Turbyern Yaqland olmaqla, Azərbaycanı sevməyən insanların bizə qarşı ikili standartlarla yanaşmasıdır. Azərbaycan ərazicə kiçik olmasına baxmayaraq, dünyada müstəqil surətdə sözünü deyir, haqq-ədaləti tələb edir və özünə hörmətlə yanaşılmasını istəyir. Azərbaycan Avropa Şurasından ərazi bütövlüyümüzün dəstəklənməsi ilə əlaqədar qəbul etmiş, qərarların icrasını tələb edir. ATƏT-in Minsk Qrupundan ədalətli mövqe tutmağını və Ermənistana təzyiq göstərilməsini tələb edir. Onlar görürlər ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında günü-gündən güclənir, hərbi gücümüz artır və bəyan edirik ki, əgər beynəlxalq təşkilatlar bu işdə susmaqda davam edərlərsə, biz öz gücümüzlə torpaqlarımızı işğaldan azad edəcəyik. Avropa Şurası da bizim ədalətli tələbimizi xoşlamır. Avropa Şurasında bizi sevməyən qüvvələr bizim müstəqil, cəsarətli siyasətimizi bəyənmirlər və bilirlər ki, 2018-ci ildə Azərbaycanda prezident seçkiləri keçiriləcək və çalışırlar ki, ölkəmizdəki siyasi sabitliyi, hansı yollarla olursa-olsun, pozsunlar. Onlar bilməlidirlər ki, Azərbaycanda xalqla iqtidar birliyi var və heç bir xarici qüvvə buna xələl gətirə bilməz. Əgər Avropa Şurasından çıxmağımızı tələb etsələr, biz buna getməliyik. Çünki biz ölkəmizin müstəqilliyini kimlərinsə istəyinə qurban verməməliyik. Düşünürəm ki, Azərbaycanın Avropa Şurasının üzvlüyündən çıxarılması baş verməyəcəkdir. Avropa üçün Azərbaycan vacib tərəfdaşdır. Azərbaycan Avropa Şurasına üzvlük haqqı ödəyir. Belə hərəkətləri isə, sadəcə, Avropa Şurasının Azərbaycana təzyiqinin ifadəsi kimi başa düşürəm.

***Siyasi şərhçi Azər Həsrət:***



- Avropa Şurasının baş katibi Turbyern Yaglandın belə bir iddia irəli sürməsi, onun vəzifə səlahiyyətini aşaraq, siyasi bəyanat verməsi kimi qəbul edilməlidir. Onun təklif etdiyi məsələnin həlli bu şəxsin özünə aid deyil. Ümumiyyətlə isə, hansısa bir şəxsə görə, Avropa Məhkəməsinin çıxardığı qərarı əsas tutaraq, Azərbaycanın qurumdan uzaqlaşdırılması məsələsi gündəmə gətirilə bilməz. Avropa Şurası fərdlərin deyil, dövlətlərin təşkilatıdır və kiminsə nədənsə xoşu gəlmirsə, o adam belə böyük iddia ilə çıxış edə bilməz. Ümumiyyətlə isə, Yaqlandın bu açıqlaması bizim üçün narahatlıq doğurmur. Çünki bu, onun fərdi fikridir və Azərbaycan qarşısında hər hansı öhdəliyə səbəb olmur. Sadəcə, könül bulandırır ki, bunun da səbəbi qərəz və ikili standartdır.

***"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev:***



- Avropa Şurası dəfələrlə müxtəlif məsələlərlə bağlı Azərbaycana təzyiqlər göstərib. Məsələnin mahiyyəti, dəfələrlə AŞ rəsmilərinin diqqətinə çatdırılsa da, bilərəkdən və ya təsir altında olmaları səbəbindən, bunu görməzlikdən gəlirlər. İndi də "siyasi məhbus" kimi qələmə verilən "REAL" Hərəkatının sədri İlqar Məmmədovla bağlı Azərbaycana qarşı növbəti təzyiq mexanizmləri işə salınmaqdadır. Belə ki, Avropa Şurasının baş katibi Turbyern Yaqland Azərbaycan Məhkəməsinin qərarına əsasən məhkum olunmuş, lakin Avropa İnsan Hüquqları Məhkəməsinin qərarına rəğmən "siyasi məhbus" kimi qələmə verilən və azadlığa buraxılması tələb olunan "REAL"-ın rəhbəri İlqar Məmmədovun azadlığa buraxılmadığına görə, ölkəmizə qarşı misli görünməmiş hüquqi hərəkət edilməsinə çağırıb. Heç şübhəsiz ki, bu, 2001-ci ildən Avropa Şurasının üzvü olan və təşkilat çərçivəsində səmərəli fəaliyyəti, bütün məsələlərə dair öz mövqeyi və rəyi ilə seçilən Azərbaycana qarşı ardıcıl şəkildə həyata keçirilən kampaniyanın tərkib hissəsidir. Onu qeyd edək ki, quruma üzv olduğu dövrdən indiyədək Azərbaycan AŞ-da daim təzyiqlə, ikili standartlarla üzləşib. Müxtəlif dövrlərdə Andreas Qross, Andres Herkel, Kristofer Ştrasser və digər bu kimi xüsusi maraqlara xidmət edən məruzəçilərin anti-Azərbaycan fəaliyyəti heç də uzaq tarix deyil. Krım məsələsində Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan fərqli olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində nümayiş etdirilən ikili standartlar və laqeydlik, qurumdakı müxtəlif qruplar tərəfindən Azərbaycana qarşı aparılan çirkin gözdənsalma kampaniyası və digər məsələlər bunun bariz nümunəsidir. Təəssüfdoğurucu haldır ki, son illər AŞPA islamofob meyillərin "qalib gəldiyi", müsəlman ölkələrə qarşı ikili standartlar siyasəti yürüdən bir quruma çevrilib. Türkiyəyə və Azərbaycana qarşı təzyiqləri buna nümunə göstərə bilərik. O cümlədən, təşkilatın müstəqil dövlətlərə təzyiq göstərmək və onların milli maraqlarına zərbə vurmaq məqsədi güdən dairələrin mənafeyinə xidmət etdiyi artıq şübhə doğurmur. Haqlı olaraq, sual yaranır ki, hansı səbəbdən Azərbaycana qarşı hücumlar təşkil edilir və niyə qərəzli addımlar atılır? Təbii ki, bunun bir neçə səbəbi var. Bu səbəblərdən biri və ən başlıcası Prezident İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarına söykənən müstəqil siyasətinin bəzi Qərb dairələrində və o cümlədən, AŞ-də qıcıq doğurmasıdır. Digər səbəb multikultural dəyərlər və tolerantlıq nümunəsi olan Azərbaycanın müsəlman ölkəsi olmasıdır. Məhz bu səbəbdən, ölkəmiz islamofobiyanın gücləndiyi AŞ-da ittiham hədəfinə çevrilib. Azərbaycanın dünyada artan nüfuzu və regionda gedən proseslərə təsiri, gücü, oynadığı rol da heç şübhəsiz ki, AŞ-dakı anti-Azərbaycan və ermənipərəst dairələri ciddi narahat edir. Məhz bu səbəbdən, Azərbaycana təzyiq və təsir etmək üçün AŞ-dəki bəzi qüvvələr müxtəlif bəhanələr və iftiralarla ölkəmizi hədəfə çevirmək istəyirlər. Necə ola bilər ki, 10 min qərarının icra olunmadığı Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycanla bağlı bir qərarı ölkənin bu qurumdan kənarlaşdırılması proseduruna start verilməsinə səbəb olsun? Təbii ki, verdiyi bəyanat Yaqlandın həm bəzi Qərb dairələri, həm də region ölkələrindən aldığı sifarişin nəticəsidir. Ümumiyyətlə, Yaqland Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən, sifarişlə müstəqil ölkələri hədəfə götürməyi sanksiyalaşdıran bir şəxsdir. Avropa Şurasında Azərbaycana qarşı çirkin oyun quranlar özlərinə sual verməlidirlər ki, bu təşkilat Azərbaycana daha çox lazımdır, yoxsa Azərbaycan onlara? Bu siyasətin nəticəsində Avropa Cənubi Qafqaz kimi strateji əhəmiyyətə malik regionda ki güclü tərəfdaşını və beləliklə də, öz maraqlarının təminatını itirə bilər. Digər tərəfdən, heç kim T.Yaqlanda təşkilatın hansısa üzvünü bu qurumdan çıxarmaqla bağlı hədələmək hüququ verməyib. O, prokuror yox, baş katibdir. T.Yaqlandın son açıqlamaları AŞ-nın nizamnaməsinə də ziddir və Azərbaycanla AŞ arasında münasibətlərin soyumasına səbəb ola bilər.

***Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:***



- Avropa Şurasının baş katibinin bu səpkildə bəyanat verməsi Qərbin, həmişə olduğu kimi, ikili standart siyasətindən irəli gəlir. Ümumiyyətlə, isə Avropa Şurasının baş katibinin vəzifəsinə daxil olmayan məsələdir ki, bu cür bəyanatla çıxış edir. Baş katibin vəzifəsi üzv ölkələrlə koordinasiyadır, əlaqələrin inkişaf etdirilməsidir, onlarla hədə dili ilə danışmaq deyil. Azərbaycan Avropa Şurasına 2001-ci ildən daxil olduqdan sonra dəfələrlə biz bu cür qanuna zidd bəyanatları eşitmişik. Bunun da arxasında anti-Azərbaycan qüvvələrin dayandığını çox yaxşı bilirik. Hesab edirəm ki, budəfəki bəyanat da tam qərəzli, Azərbaycanın daxili işinə qarışmaqdır və bu, yolverilməz bir addımdır. Biz müstəqil dövlətik və bizimlə heç kim hədə dili ilə danışa bilməz. Buna heç kimin nə ixtiyarı, nə də səlahiyyəti çatır. Ümumən mən hesab edirəm ki, hansı beynəlxalq qurumda ikili standartlar varsa və bizə qarşı qərəzli mövqe sərgilənirsə, heç o qurum Azərbaycana lazım da deyil. Boş yerə o cür qurumlara üzvlük haqı ödəməyə də dəyməz. Bir vaxtlar bu tip beynəlxalq qurumlara üzvlük Azərbaycanın Qərbə inteqrasiyası üçün lazım idi və bu erməni işğalının dünyaya çatdırılması və onun qarşısının alınması məqsədi daşıyırdı. Lakin bunun əvəzində, biz hədə, ikili standartlar, daxili işlərə qarışmaq və s. neqativ hallarla üzləşirik. Əksinə, ermənilərə himayədarlıq görürük. Onda ortaya sual çıxır nəyimizə lazımdır Avropa Şurası? Bu gün Rusiya Avropa Şurasında deyil. Ruslar nəsə itiriblərmi? Əksinə, Avropa Şurasının nüfuzuna xələl gəlib. Ona görə də, düşünürəm ki, ədalətə söykənməyən, yalnız öz maraqlarını güdən beynəlxalq qurumlar Azərbaycana lazım da deyil. Biz güclü, müstəqil dövlətik, öz siyasətimiz və öz yolumuz var.

**GÜLYANƏ**

## Ötən ay "Azərenerji" 1,66 milyard kilovat-saat elektrik enerjisi istehsal edib

2017-ci ilin sentyabr ayında "Azərenerji" ASC tərəfindən 1,66 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib. ASC-nin ictimaiyyətlə əlaqələr və mətbuat xidmətindən SİA-ya bildirilib ki, "Azərenerji" sentyabrda təchizatçıları tələbatlarına uyğun olaraq elektrik enerjisi ilə təmin edib. Bu dövr ərzində ölkə enerji sisteminin əlaqəsi olan qonşu dövlətlərlə elektrik enerjisi mübadiləsi qarşılıqlı şəkildə davam etdirilib. Qeyd edək ki, ötən ilin sentyabr ayında bu rəqəm 1,64 milyard kilovat-saat olub. Strateji Yol Xəritəsi çərçivəsində elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi verilişinin və ötürülməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə görüləcək tədbirlər üzrə bir sıra layihələr həyata keçirilib. Ümumilikdə, ay ərzində texniki tələblərə uyğun itkilər qeydə alınıb.

## Qəbul məntəqələrinə 56 min 554 ton pambıq təhvil verilib

Oktyabrın 3-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 56 min 554,24 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,7 dəfə çoxdur (12 min 69,7 ton). Komitənin məlumatına görə, ölkə üzrə cari ildə ötən illə müqayisədə 2,7 dəfə çox - 136 min 413,2 hektar ərazidə çiyid səpilib. Bu il ən çox pambıq Saatlıda əkilib (17220 hektar). Sonrakı yerlərdə İmişli (15641,5 hektar), Sabirabad (15055 hektar), Biləsuvar (11351,8 hektar) və Neftçala rayonları (11111 hektar) gəlir. AZƏRTAC Dövlət Statistika Komitəsinin pambıq tədarükünə dair oktyabrın 3-dək olan operativ məlumatını təqdim edir.

# Ulu Öndər Heydər Əliyev Azərbaycan milli incəsənəti haqqında

***Ulu Öndər Heydər Əliyev musiqi, memarlıq, kino və teatr sənətimizə qayğı göstərir, onları yüksək dəyərləndirirdi. Dahi şəxsiyyət Azərbaycan memarlığını dünya və islam milli və ümumbəşəri memarlığının vəhdəti hesab edirdi: "İslam memarlıq məktəbinin bəşəriyyətə bəxş etdiyi misilsiz sənət inciləri dinimizin humanist fəlsəfi dəyərlərinin parlaq ifadəsi, müsəlmanların daim qurub-yaratmaq eşqinin əyani maddi təcəssümüdür. Avropa və Asiyanın qovşuğunda yerləşən ölkəmizdə dünya və islam memarlığının ən yaxşı ənənələri ilə milli xüsusiyyətlərin sintezini özündə əks etdirən güclü memarlıq məktəbi təşəkkül tapmışdır".***

Azərbaycanın mənəvi həyatında mühüm rol oynayan, kütləvi təsir gücünə malik milli teatrımızı və kinomuzu Ulu Öndər Heydər Əliyev belə dəyərləndirirdi: "Teatrı heç nə əvəz edə bilməz. Heç nə. Ona görə ki, teatrda insan canlı adamlarla - bu və ya digər vəziyyəti səhnədə canlandıran aktyorlarla, bilavasitə ünsiyyətdə olur. Bunu kinematoqraf haqqında da demək olar. İncəsənətin yeni nə kimi növləri meydana gəlsə də, kinematoqraf öz əhəmiyyətini itirməyəcəkdir. Odur ki, bədii kino, bədii əsərlər televiziya ilə, digər üsullara yaradılan, qalan bütün lentlərdən, şübhəsiz, qat-qat yüksəkdir. Sənədli kino xüsusi əhəmiyyətə malikdir. Bədii, peşəkarlıq səviyyəsi layiqincə olduqda, sənədli kino xüsusi dəyər kəsb edir. Ona görə də, indi, məsələn, XX yüzillik ərzində bizdə neft sənayesinin necə inkişaf etdiyini göstərəndə, əsrin əvvəlinə aid hər hansı sənədli kadrları göstərəndə, bunlar hətta bir an, hətta bir saniyə, bir dəqiqə çəksə də, bir görün necə təəssürat bağışlayır! Azərbaycanda cəmiyyət, xalq kinonu sevir və kinoya marağı itirməyiblər. Azərbaycanda incəsənətə, mədəniyyətə, kinoya, teatra, musiqiyə maraq getdikcə artır, ölkəmizin mədəniyyət xadimləri həm cəmiyyətin, həm də dövlətin qayğı və diqqəti ilə əhatə olunmuşdur. Fəxr edirik ki, bizim dünyəvi teatrın 130 illik tarixi vardır. Fəxr edirik və bu, bizi bölgədəki bütün xalqlardan fərqləndirir. O mənada ki, bizdə demokratik-dünyəvi ideyalar bu günün, dünənin hadisəsi deyil. Opera sənətini, musiqi mədəniyyətimizi dünya mədəniyyəti xəzinəsinin nadir incilərindən hesab edən Ulu Öndər Heydər Əliyev dahi bəstəkarlarımıza, onların şah əsərlərinə və musiqi ifaçılarımıza yüksək dəyər verirdi: "Koroğlu" operası əzəmətli bir əsərdir və bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir. İlahi, biz nə xoşbəxtik! Ancaq bizim bu xoşbəxtliyimizi, bizim xalqın bu gözəl mədəniyyətini belə yüksəklərə qaldıran Azərbaycanın dəyərli insanları olubdur. Opera sənəti, klassik musiqi həm xüsusi istedad tələb edir, həm də xüsusi səs tələb edir, həm də o səsin hazırlanmasını tələb edir. Fidan, Xuraman teatra gələndə, gərək teatrın qapıçısından ta direktoruna qədər bunlara baş əyib qarşılasınlar. Çünki bunlar adi adam deyillər. Bunları adi adam kimi qəbul etmək olmaz. Mən bu sözləri göydən götürmürəm. Bizim xalqımızda incəsənət, musiqi, mədəniyyət baxımından kütləvi istedad var. Yəni bu, ayrı-ayrı adamların istedadı deyil, ümumiyyətlə, bizim xalqımızın çox yüksək istedada malik olmasıdır. İnsan mədəniyyət, incəsənət sahəsində nə qədər istedadlı olsa, bütün başqa sahələrdə yaşadığı, işlədiyi, çalışdığı sahələrdə bir o qədər müvəffəq ola bilər. Biz bunu filmlərdə görmüşük. Yüksək mədəniyyətli Avropa ölkələrində bu qədər yüksək ada malik olan sənətkarları hamı, doğrudan da, böyük hörmətlə qarşılayır. Bu, bizdə də olmalıdır. Biz bu mədəniyyəti yaratmalıyıq".

Ümumiyyətlə, Azərbaycan mədəniyyətini xalqın milli ruhunun, dünyagörüşünün təcəssümü hesab edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir. Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm faktorlardan biridir. Mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin. Ona görə də, biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimizə baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata - bütün bu sahələrdə xüsusi diqqət göstəririk. Yüksək tolerantlıq, ilk növbədə, yüksək mədəniyyətin təzahürüdur. Azərbaycan çoxkonfessiyalı bir ölkədir. Bu baxımdan, o, dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir. Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır".

Azərbaycan mədəniyyətində azərbaycançılıq ideyasının təcəssümünə Heydər Əliyev dahi Füzulinin 500 illik yubileyini keçirən Təşkilat Komitəsinin yığıncağında yüksək dəyər verərək demişdir: "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, yubileyin keçirilməsi indiki nəslin, tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə neçə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir".

> "Azərbaycan mədəniyyətini xalqın milli ruhunun, dünyagörüşünün təcəssümü hesab edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir. Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm faktorlardan biridir. Mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin Ona görə də, biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimizə baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata - bütün bu sahələrdə xüsusi diqqət göstəririk"

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 4 oktyabr

## Yüksək qızdırmadan təbii yollarla qurtulun!

Müxtəlif xəstəliklər nəticəsində yüksələn temperatur bədəndə ciddi ziyanlara səbəb ola bilir. Yüksək temperaturun gəlişini xəbər verən ən əsas əlamətlər isə üşümə hissi və bədənin nəzarət edilə bilməyəcək şəkildə titrəməsidir deyən mütəxəssislər bu qarışıqların yüksək atəşi salmağa təsirli olduğunu bildirir: **Pambıq toxumu:** 1 litr suyun içinə 1 ovuc pambıq toxumu qatıb süzün və gündə 3 dəfə bir şorba qaşığı üçün. **Qərənfil çiçəyi:** Bir litr suyun içinə bir ovuc qərənfil çiçəyi atın. Sonra süzərək gündə 3 dəfə iki şorba qaşığı üçün.

**Sirkə:** Xəstənin başına sirkə ilə isladılmış və çox sıxılmamış bir tənzif bağlayın. **Balqabaq:** Bir litr suyun içinə incə doğranmış bir ovuc balqabaq qatıb qaynadın. Daha sonra süzərək gündə 3 dəfə bir çay stəkanı için. **Cəfəri:** Bir litr suyun içinə bir ovuc incə doğranmış cəfəri qatıb qaynadın. Daha sonra süzərək gündə 3 dəfə bir çay stəkanı için. Bənövşə yarpağı: Bir litr suyun içinə bir ovuc bənövşə yarpağı qatın. Daha sonra süzərək gündə 3 dəfə bir qəhvə fincanı için. Sarımsaqlı qatıq: Xəstənin bədəninə bol miqdarda sarımsaqlı qatıq sürün. Qatığın qurumasından sonra təmiz və ilıq bir bezlə bədənini silin.

## Diqqət: Bu bitki sonsuzluğun dərmanıdır...

Kalsium, dəmir, fosfor və C vitamini ilə zəngin olan cəfəri qan dövranını sürətləndirir. Kişilərdə sperma keyfiyyətini artıraraq, sonsuzluğa son qoyur. Kişi və qadında cinsi istəyi artırır.

**Cəfərinin digər faydaları:**

1. Bağırsaqları işlədir və həzmi asanlaşdırır. Sidikqovucu xüsusiyyəti ilə bədəni və qanı təmizləyir.
2. Qəbizliyin qarşısını alır. Mədə və bağırsaq qazlarını aradan qaldırır.
3. İştah açır.
4. Qızdırmanı aşağı salır.
5. Gözləri qüvvətləndirir. Diş ətini möhkəmləndirir.
6. Qan azlığına qarşı çox faydalıdır. Halsızlığı aradan qaldırır.
7. Yüksək təzyiqi aşağı salır. Ürək və damar xəstəlikləri ilə xərçəngə qarşı qoruyucudur.
8. Qaraciyər xəstəlikləri ilə revmatizm, selülit və ekzemaya qarşı xeyirlidir.
9. Menustrasiya dövrünü nizamlayır.
10. Dəriyə canlılıq bəxş edir və saçları canlandırır.

## İbrahim Tatlısəs sosial mediada yayılmış şəklinə görə qəzəblənib

Müğənni İbrahim Tatlısəs sosial mediada yayılmış şəklini gördükdə üsyan edib. Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sosial şəbəkələrdə ifaçının fotoşopla hazırlanmış Şimali İraqda səsvermədə olduğunu əks etdirən fotosu yayılıb.

Şəklə müxtəlif şərhlərin yazıldığını görən İbrahim rəsmi İnstaqram səhifəsində buna aydınlıq gətirib. O, fotonun orijinal variantını hesabında paylaşaraq yazıb: "Ağıl var, məntiq var. Mənim Türkiyə vətəndaşı ola-ola İraq referendumunda nə işim var? Bəziləri fotoşopdan istifadə edərək insanları aldatmağa çalışırlar. Gözəl qardaşlar, orijinal şəkil paylaşaraq istədim biləsiniz ki, bu, 16 aprel konstitusiyaya dəyişiklik zamanı çəkilmiş fotodur. Bir ildir İzmirdəyəm, heç hara getməmişəm. Bunu hamı bilir. Odur ki, kimin nə etmək istədiyini anlaya bilmirəm".

## Gimnastımız Dünya Kubokunda qızıl medal qazanıb



Portuqaliyada keçirilən Dünya Kuboku yarışlarında batut gimnastikası üzrə yığma komandamızın üzvü Mixail Malkin tamblinq cığırında qələbə qazanıb. Azərbaycan Gimnastika Federasiyasının məlumatına görə, 20-dən çox ölkənin idmançılarının iştirak etdikləri turnirin təsnifat mərhələsində inamlı çıxışı ilə hakimlərdən ən yüksək xal alan gimnastımız final mərhələsinə vəsiqəni təmin edib. Həlledici mərhələdə də proqramını qüsursuz icra edən idmançımız bütün rəqiblərini geridə qoyaraq Dünya Kubokunun qızıl medalına sahib olub. Xatırladaq ki, M.Malkin bu ilin fevralında Bakıda təşkil olunmuş Dünya Kuboku mərhələsində gümüş medal qazanıb. Gimnastımız oktyabrın ilk həftəsində İspaniyada keçiriləcək beynəlxalq turnirdə və noyabrın 9-11-də Sofiyada təşkil ediləcək dünya yaş qrupu yarışlarında iştirak edəcək.

## "Tərlan Əhmədov bizdə özünəinamı qaytarıb"



"İlk qələbəmizi qazandığımıza görə çox şadam. Son həftələr öz üzərimizdə çox çalışmışıq". Bu sözləri "Neftçi"nin futbolçusu Derlis Meza Kolli Topaz Premyer Liqasının 7-ci turunda "İnter" üzərində 2:0 hesablı qələbəni şərh edərkən deyib.

Matçda "Neftçi"nin ilk qoluna imza atan 29 yaşlı paraqvaylı yarımmüdafiəçi "Neftçi TV"yə açıqlamasında bildirib ki, yeni baş məşqçi Tərlan Əhmədov komandaya özünəinamı qaytarıb: "Yeni baş məşqçi bizdə özünəinamı qaytarıb. Bunun da komanda şəklində qalib gəlməyimizə köməyi dəydi. Əlbəttə, qələbəmizdə azarkeşlərin də böyük payı var. Komanda bir ailə olanda qələbə də olur".

## Karlo Ançelotti: "Qarşıdakı 10 ay ərzində dincələcəyəm"



"Bavariya"dan ayrılan Karlo Ançelotti açıqlama verib. SİA-nın məlumatına görə, 58 yaşlı mütəxəssis mövsümün sonuna qədər işləmək istəmədiyini söyləyib: "Qarşıdakı 10 ay ərzində dincələcəyəm. Hazırda danışıq apardığım klub yoxdur. Digər məsələlər haqda isə susmağım daha yaxşıdır". Xatırladaq ki, italiyalı baş məşqçi 2016-cı ildən Münhen klubunu çalışdırırdı.

## Ramos və Pike arasında dava düşüb



İspaniya milli komandasının futbolçuları Serxio Ramos və Jerar Pike arasında məşq zamanı dava düşüb. SİA-nın məlumatına görə, buna Kataloniyanın İspaniyadan ayrılıb müstəqilliyini elan etməsi ilə bağlı referendum səbəb olub. "Real Madrid"in kapitanı olan Ramos "Barselona"nın formasını geyinən Pikeni yığmanın düşərgəsində əhval-ruhiyyəni pozmaqda ittiham edib. Daha əvvəl ispaniyalı azarkeşlər yığmanın Madriddə baş tutan məşq prosesi zamanı Jerar Pikeni fitə tutmuşdu. Fanatlar hesab edir ki, 30 yaşlı kataloniyalı futbolçu sosial şəbəkələrdə səsləndirdiyi fikirlərlə yığmaya ziyan vurur.

Qeyd edək ki, referendum oktyabrın 1-də keçirilib. Kataloniya muxtariyyətinin rəhbəri Karles Puçdemon prosesdə iştirak edənlərdən 90 faizinin müstəqillik lehinə səs verdiyini açıqlayıb.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin I kurs tələbəsi Səmədova Dilbər Mübariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Başsağlığı

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qazaxıstan Respublikasındakı nümayəndəsi, polis polkovniki Nəsimi Şikarov yaxın qohumu, Sosialist Əməyi Qəhrəmanı

**ÖMƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və əzizlərinə dərin hüznlə başsağlığı verir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**